Bizim üstünlüyümüz ondan ibarətdir ki, biz vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etmişik, həm Xəzər dənizində, həm dəmir yolu infrastrukturunda, həm avtomobil yolları, həm dəniz limanı, gəmiqayırma zavodu, hansı ki, bu gün tam gücü ilə işləyir. İlk dəfə olaraq, o zavod işə salınanda sifarişlər onu 100 faiz işlə təmin edib.

Səkkiz beynəlxalq aeroportumuz var, doqquzuncu Laçında inşa edilir. Yəni, biz tam hazırıq. Hazır olmayanlar da öz işlərini görsünlər, öz ərazilərində çatışmayan infrastruktur layihələrini icra etsinlər. Əlbəttə ki, beynəlxalq təcrübəyə əsaslanaraq biz tranzit ölkə kimi öz imkanlarımızı təqdim edirik. Əlbəttə ki, bundan həm iqtisadi, həm siyasi dividendlər alacağıq.

Azərbaycan o ölkələrdəndir ki, açıq dənizlərə çıxışı yoxdur. Ancaq buna baxmayaraq, dediyim o səbəblərə görə bu gün biz nəqliyyat mərkəzlərindən birinə çevrilmişik. Getdikcə rolumuz artacaq, bizə müraciətlər də çoxalacaq, necə ki, bu gün xahişlə müraciət edirlər ki, "bizə qaz verin, bizə qaz verin, bizdə qaz çatmır" və sair, burada da eyni mənzərə olacaqdır.

Biz heç kimdən heç nə xahiş etmirik. Mən 20 ildən çoxdur ki, prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik.

Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət, - bunu hamı bilir, - daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

Bəzən eşidirik ki, hansısa ölkələr, yaxud da ki, ölkələr qrupu beynəlxalq ictimaiyyət funksiyalarını öz üzərinə götürmək istəyir və beynəlxalq ictimaiyyət adından danışmağa çalışır. Sözü olmayanda deyir ki, beynəlxalq ictimaiyyət bu məsələni yaxşı qəbul etməz, beynəlxalq ictimaiyyət o məsələni yaxşı qəbul etməz. Birincisi, bu, təvazökarlıqdan uzaq olan məsələdir. Məhdud sayda olan hər hansı 20-30 ölkə beynəlxalq ictimaiyyət adından danışa bilməz, o ki qaldı bir ölkə, ümumiyyətlə, danışa bilməz. Beynəlxalq ictimaiyyət isə bizim tərəfimizdədir və İkinci Qarabağ müharibəsi zamanı, antiterror əməliyyatı zamanı beynəlxalq ictimaiyyət bizi dəstəkləmişdir. Bu gün Azərbaycanın beynəlxalq nüfuzu hesab edirəm ki, heç kimə sirr deyil.

Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır.

Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayırıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz

Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik.

İslam Əməkdaşlıq Təşkilatı da həmişə - həm işğal dövründə, həm işğaldan sonra, həm də İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı və ondan sonra Azərbaycanın yanında olub. Azərbaycan bu təşkilatın dəyərli üzvüdür. Azərbaycanda müsəlman dininə və bütün dinlərə olan münasibət bu təşkilat tərəfindən yüksək qiymətləndirilir. Bu təşkilat bütün müsəlman ölkələrini birləşdirir. Əlbəttə ki, bu təşkilatda bizim təşəbbüslərimizin qəbul edilməsi və dəstəklənməsi xüsusi məna daşıyır.

Qoşulmama Hərəkatı. Baxmayaraq ki, biz sədrliyi artıq təhvil vermişik, biz üçlükdə təmsil olunuruq. Qoşulmama Hərəkatı bizim sədrliyimiz dönəmində yeni müstəviyə qədəm qoyub, əlbəttə, imkan verə bilmərik ki, müəyyən dərəcədə tənəzzülə uğrasın. Əminəm ki, bu, olmayacaq. Biz isə öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, Qoşulmama Hərəkatı bir təsisat kimi daha da güclənsin. Əgər üzv ölkələrin qarşısında duran problemlərin həllinə kömək göstərmək lazım olarsa, əlbəttə, biz bunu edəcəyik.

Biz, ümumiyyətlə, bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən iqlim dəyişikliyi ilə əlaqədar. Nəzərə alsaq ki, COP29-un ev sahibi və sədri olacağıq, eyni zamanda, dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq. Neokolonializmi və o eybəcər tarixdən qalan amili Yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik. Bunu neokolonializmin başında duranlar da bilsinlər ki, onlar əbəs yerə bizimlə soyuq savaşa çıxıblar. Biz geridə qalmayacağıq, biz heç vaxt müdafiə mövqeyində olmamışıq. Bizə qarşı atılan addımlara adekvat addım atacağıq və bizə qarşı məkrli planlar hazırlayanlar, əminəm ki, peşman olacaqlar.

Nəhayət, Azərbaycan-Ermənistan münasibətləri. Mən çıxışımın sonunda bu məsələyə təsadüfən toxunmuram. Hesab edirəm ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamınıza uğurlar, yolumuz açıq olsun!

***

Bununla da təntənəli andiçmə mərasimi başa çatdı.

*AZƏRTAC*







## XƏZƏR UNİVERSİTETİ "DÜNYANIN ƏN YAXŞI UNİVERSİTETLƏRİ - 2023" REYTİNQİNDƏ YER ALIB

Alim və tədqiqatçılar üçün nəzərdə tutulan tanınmış research.com akademik platforması 2023-cü il üzrə "Dünyanın Ən Yaxşı Universitetləri"nin ikinci reytinq cədvəlini elan edib. Belə ki, bu reytinq cədvəli aparıcı tədqiqatçıların elmi nailiyyətləri və məhsuldarlığını qiymətləndirir. Universitetlərin qlobal reytinq cədvəlindəki yeri aparıcı tədqiqatçıların H-indeks göstəricisinə əsasən müəyyənləşir.

Reytinq cədvəlində 11-i postsovet ölkəsi olmaqla, ümumilikdə dünyanın 116 ölkəsindən olan universitetlər dəyərləndirilib.

Reyting cədvəlində Azərbaycandan yalnız Xəzər Universiteti yer alıb.

## KHAZAR UNIVERSITY IS AMONG THE "BEST UNIVERSITIES IN THE WORLD 2023" RANKING

Research.com, a leading academic platform for scholars, has recently launched the second edition of its "Best Universities in the World 2023" ranking.

This ranking primarily emphasizes the scientific achievements of prominent scientists associated with each higher education institution. The position of a university in this global ranking is determined by aggregating the H-index values of all its leading scientists.

Universities across 116 countries have been evaluated in this ranking, including higher education institutions from 11 post-Soviet countries.

Khazar University, renowned for its research outcomes, is the only higher education institution in Azerbaijan to be ranked.



# ÜRƏKLƏ ZİYALI ADLANDIRA BİLƏCƏYİMİZ HAMLET İSAXANLI

*1 Mart - ad günü münasibətilə*

# HAMLET ISAKHANLI - SOMEONE WHOSE INNATE INTELLIGENCE SHINES THROUGH

*March 1- on the occasion of his birthday*

*Alik Əlioğlu* *Hamlet İsaxanlı*

Hamlet İsaxanlı ürəklə ziyalı adlandıra biləcəyimiz tək-tük adamlardandır.

Mən onu, 20 ilə yaxındır ki, tanıyıram.

Xəzər Universitetinin əvvəl tələbəsi, sonra əməkdaşı olmuşam.

Hamlet müəllim Xəzər universitetini öz balası kimi sevir, ovcunda qoruyur, onu bütün çirkablardan uzaqda tutmağı bacarır.

Digər universitet rektorları koridorda gəzərkən mühafizəçiləri tələbə ilə rektor arasında bir sədd yaradanda, Hamlet İsaxanlı tələbələrin arasından keçib öz iş otağına gedir, dəhlizdə ona yaxınlaşan, dərdini deyən bütün tələbələri bir-bir dinləyir.

Sonralar, mən orada işləyəndə dəfələrlə iş otağımın qapısı qəfil döyülür, Hamlet müəllim gəlib oturub işdən, ədəbiyyatdan, həyatdan danışırdı.

Onun söhbətləri mənim üçün həmişə bir ustad dərsi olub.

Mən onu rəhmətlik Nailəxanımla birgə Əhmədlidəki balaca evimizə dəvət edəndə, heç ağlıma gəlməzdi ki, dəvətimi qəbul edər.

Onları evimizdə görmək bizim üçün o qədər xoş olmuşdu, onların söhbətindən o qədər zövq almışdıq ki, həmin gün yaşadığımız ən gözəl günlərin siyahısındadır.

Hamlet İsaxanlı qazandığı uğurlara, əldə et-

Hamlet Isaxanli is someone whose innate intelligence shines through.

I have known him for almost 20 years.

I was first a student, and then an employee of Khazar University.

Hamlet Isakhanli cherishes Khazar University like his own child, protects it dearly, and manages to keep it away from any kind of harm. While other university rectors are accompanied by guards who create a barrier between them and the students as they walk down the corridor, Hamlet Isakhanli passes through the students and goes to his office.

Later, when I worked there, many times there was a sudden knock on the door of my office, teacher Hamlet would come and sit and talk about work, literature and life.

His conversations have always been a lesson in mastery for me.

When I invited him to our modest home in Ahmedli, alongside the late Nailekhanim, I never imagined he would accept.

Having them at our home was truly delightful, and we relished their conversation to such an extent that this day remains one of our fondest memories. Hamlet Isakhanli, despite his achievements, never aspired to become an "official" .

diyi müvəffəqiyyətlərə rəğmən, heç vaxt məmurlaşmadı. Öz kövrək qəlbini, şair ruhunu həmişə təmiz saxladı.

Mövlud Süleymanlının kiçik oğlu Elayın toyu idi. Yan masada tanınmış adamlar, dövlət məmurları əyləşmişdi. Hamlet müəllim zala daxil olanda ona həmin masada yer göstərdilər. O bizə tərəf yaxınlaşanda məni gördü və ona yer göstərən adama gülümsəyərək, "Mən öz işçimin yanında oturacam" dedi və gəlib mənim yanımda əyləşdi. Bu mənim üçün çox böyük insani keyfiyyətdir. Mənə görə, həyatda ən gözəl nemətlərdən biri təvazökarlıqdır.

Hamlet İsaxanlını bu keyfiyyətlərinə görə özümə doğma bilirəm. O doğma adamdır, kövrək adamdır, ruh adamıdır.

Ad günün mübarək, böyük adam, şeir adam.

Onu ən sevdiyim öz şeirlərindən biri ilə təbrik edirəm.

**Xəzər Universitetinin Elektron Media mərkəzinin koordinatoru, şair Alik Əlioğlu**

He always preserved his fragile heart and poetic spirit. It was the wedding of Mevlut Suleymanli's youngest son, Elay.

Celebrities and government officials were sitting at the neighboring table.

Hamlet Isakhanli, upon entering the hall, was shown a seat at the table.

When he approached me, he saw me and smiled at the one who indicated the chair to him, and said, "I'll sit next to my colleague." And he came and sat next to me. For me, this was a great human quality. In my opinion, modesty is one of the greatest blessings in life. Because of these qualities, I hold Hamlet Isakhanli dear to my heart.

He is a true man, fragile and soulful.

Happy birthday, great man, man of poetry. I extend my congratulations with one of my favorite poems authored by him.

**Coordinator of Khazar University's Electronic Media Center, poet Alik Alioglu.**

## *TƏK QALMAQ İSTƏYİRƏM*

Yoruluram
Şəhərlərin hay-küyündən,
Qaçmaq istəyirəm hərdən
İnsanlardan, bu gündən.
Bezirəm
Müdrik səbrdən,
Dünyanın gərdişinə dözümdən;
Uzaqlaşmaq istəyirəm
Özümdən.
Böyük-böyük iclaslarda,
Haylı-küylü məclislərdə
Sevmirəm söz deməyi,
Ya boş sözü dinləməyi.
Əvəzində,
Düşünürəm xəfif-xəfif...
Bu yandasa bir hərif
Kürsüdən yağdırır
Tərif, tərif, tərif.
Lüğətində yoxdur qürur,
Cümləsində çox azdır
Xoş mübtəda, yaxşı xəbər,
Amma sifət nə qədər...
Sifət, sifət...
Özümü ələ alıram,
Şeytana lənət.
İçimdə boğulur nifrət
ətək-ətək,
tək qalmaq istəyirəm, tək.
Gündəlik qayğılar
Başımdan aşanda,
Dünyanın haqsızlığı
Aşıb, daşanda
Sıxır məni
Şövkət də, şan da,
Toy da, nişan da.
Qaçmaq istəyirəm
Gurultulu çal-çağırdan,
Zəngindən, fağırdan.
O anda
Bir sadə tütək almaq
Və təklik havası çalmaq
Keçir ürəyimdən.
Gözlərimi yumuram
əlacsız qalanda.
Təkliyə cumuram
İlk imkanım olanda.
Təklik -
fikrimin süsləndiyi
ən uca yüksəklik.
Təklik –
xəyalımın bəsləndiyi
ən xoş gerçəklik.



*Xankişi Bəxtiyar*

# RUHUNUZA VƏ İLHAMINIZA VALEH OLDUM

**Hörmətli Hamlet müəllim, salam!**

Bu yazıları mən yazmamışam, yazdıran yazdırıb. Yazdıran kimdir, onu bilmirəm. Bircə onu bilirəm ki, bir də gördüm ki, masamın üstündə Sizə ünvanlanmış bir məktub var. Mən də sadəcə olaraq həmin yazını sizə göndərdim.

Çox dəyərli Hamlet müəllim, sizin dünya şöhrətil bir alim olmağınız dünyaya çoxdan bəllidir. Bu barədə danışmaq istəmirəm. Çünki bu haqda kifayət qədər yazılar yazılıb və bütün bunlar ədəbi aləmə çoxdan məlumdur. Sadəcə olaraq, bu fitri istedadınıza görə alqış edib, Sizə sözdən uzun, sözdən qiymətli, sözdən qədirli ömür arzulayıram! Canınız buz baltası kimi möhkəm olsun! Sınıqlıqdan uzaq olasınız, dərd, qəm, böhtan, şər yaxanızı tanımasın, didərgin düşsün ocağınızdan 7 qat, İnşəallah!

Hörmətli Hamlet müəllim, Dədə Ələsgərlə bağlı bir bilməcə var: **o nədir ki, həm bilirəm, həm də bilmirəm?** Yüzə-yüz bunun açmasını bilirsiniz. Ona görə bu barədə vaxtınızı almaq istəmirəm. Yeri gəlmişkən, Dədə Ələsgəri bircə dəfə bağlayıblar, onda da bir uşaq ustadımızı bu bilməcəylə imtahan edib və ustadımız da imtahandan kəsilib. Həmin epizodda ustadımız özünə bəraət qazandırmaq üçün qayıdır ki, ay camaat, elə bilirsiniz ki, ustadlar, aşıqlar hər şeyi bilir, onların bilmədiklərini ayaqlarının altına qoysanız, başları ulduzlara dəyər. İndi baxıb görürəm ki, hörmətli professor, düşündüyümün əksi olaraq mənim də bu dünyada çox şeylərdən xəbərim yoxumuş təəssüf ki!

Bilmədiyimin biri odur ki, Sizin kimi çox istedadlı şairi indiyə kimi tanımamışam. Bunu özümə bağışlaya bilmirəm.

Bu gün bəzi şeirlərinizlə tanış olmaq mənə qismət oldu. Sözün həqiqi mənasında ruhunuza və ilhamınıza valeh oldum. "Şeir yolu", "Səni sevdim çox sadəcə...", "Gözəldir", "Dedim-dedi", "Sən həyatdan dadlısanmış", "Çaşdım, nə çaşdım", "Düyməciyin olaydım" və s. Bu şeirlərin hər biri mükəmməl əsər olmaqla bərabər, həm də orijinaldır.

Çox dəyərli şairimiz, Hamlet müəllim, bu günə qədər elə bilirdim ki, riyazi terminlərdən müasir poeziyamızda təkcə mən istifadə edirəm. Amma bu gün məlum oldu ki, məndən də qabaq riyazi terminlərdən poeziyada istifadə edən oğullar varımış: "**Məchul** bir yürüşə çıxıbdı şerim" və s. Eşq olsun sizə! Riyazi terminlərdən (**düstur**) istifadə etdiyim şeirlərdən birini də mən bəndəniz Sizə ünvanlayıram:

İndi də yadımdan çıxmır bircə an,
Sirli nağılıydı həmin o gecə.
Bir həyat məktəbi, bir həyat dərsi,
Sirli nağılıydı həmin o gecə.

Gördüm ki, saçını küləklər öpür,
Boynun qucaqlayıb mələklər öpür.
Güllər naz eliyir, çiçəklər öpür,
Sirli nağılıydı həmin o gecə.

Çox gözlərdə mən sevincdən nəm gördüm,
Çox adamı mey içməmiş dəm gördüm.
Hər bir kəlməsində min məlhəm gördüm,
Sirli nağılıydı həmin o gecə.

Muğamlar oxundu, şeir oxundu,
Cinas ilmələndi, təcnis toxundu.
O gecə heç kimin dərdi yoxuydu,
Sirli nağılıydı həmin o gecə.

O gecə nə varsa, dupduru idi,
Sular duru idi, qum duru idi.
O gün gecələrin **düsturu** idi,
Sirli nağılıydı həmin o gecə.
Sirli nağılıydı həmin o gecə.

Hörmətli şairimiz, məsləhət bilsəniz, sizinlə görüşüb bir çox layihələr haqqında söhbət etmək istərdim. Yeri gəlmişkən, ədəbiyyata bir çox yeni terminlər gətirib, onları tədqiq etmişəm. Məsələn, dodaqdəyməz atalar sözləri, dildönməz atalar sözləri, qafiyəli atalar sözləri, əvvəl-axır atalar sözləri, hərfi qalın atalar sözləri, hərfi incə atalar sözləri, lipoqram modelli atalar sözləri və s. Ədəbiyyatda rast gəlinməyən "dildönməz" formalı şeirlərin müəllifiyəm. Bir sözlə, yeniliklər çoxdur. Sonda can sağlığı və hərtərəfli yaradıcılığınızda Sizə uğurlar arzu edirəm.

*Hörmətlə:*

**Xankişi Bəxtiyar**

# XƏZƏR UNİVERSİTETİNDƏ YENİ ELMİ-TƏDQİQAT MƏRKƏZLƏRİ YARADILIR

*Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı elmi-tədqiqat işlərinin gücləndirilməsi və Xəzər Universitetinin elmi-tədqiqat yönlü universitetə çevrilməsi məqsədiləXəzər Universiteti nəzdində elmi-tədqiqat mərkəzləri yaradılması haqqında əmr imzalamışdır. Hər mərkəz öz nizamnaməsi əsasında müstəqil fəaliyyət göstərəcək və təyin olunmuş direktor tərəfindən idarə olunacaq.*

## AŞAĞI ÖLÇÜLÜ MATERİALLARIN TƏDQİQATI MƏRKƏZİ

## LOW DIMENSIONAL MATERIALS RESEARCH CENTER

Xəzər Universitetində Fizika və elektronika departamenti tərəfindən Aşağı Ölçülü Materialların Tədqiqatı Mərkəzi yaradılıb. Mərkəzin direktoru Fizika elmləri doktoru, Dos. Mətləb Mirzəyev təyin edilib.



*Mətləb Mirzəyev*

Mətləb Mirzəyev Rusiyanın Birləşmiş Nüvə Tədqiqatları İnstututunda Flerov adına Nüvə reaksiyaları laboratoriyasının elmi işçisidir.

Mərkəzin elmi fəaliyyəti üçölçüdən kiçik ölçülü strukturlar da daxil olmaqla aşağı ölçülü sistemlərlə bağlı müxtəlif tədqiqat işlərindən ibarətdir. Mərkəzin ilkin tərkibi 11 nəfərdən ibarətdir və onun 1 nəfəri elmlər doktoru, 2 nəfəri dosent, 3 nəfəri fəlsəfə elmləri doktoru, 6 nəfəri isə doktorantdır. Üzvlər Azərbaycan, Türkiyə, Rusiya kimi ölkələrin elm qurumlarında fizika sahəsi üzrə elmi fəaliyyət göstərirlər.

Mərkəzin əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar: Optoelektronika üzrə Milli Tədqiqat və İnkişaf İnstitutu (Maqurele, Rumıniya), Beynəlxalq Hökumətlərarası Təşkilatın Birgə Nüvə Tədqiqatları İnstitutu (Dubna, Rusiya), Elektronika İnstitutu (Bolqarıstan Elmlər Akademiyası, Sofiya), Nüvə Tədqiqatları və Nüvə Enerjisi İnstitutu (Bolqarıstan Elmlər Akademiyası, Sofiya), L.N. Qumilyov adına Avrasiya Milli Universiteti (Astana, Qazaxıstan), Nüvə Fizikası İnstitutu (Polşa Elmlər Akademiyası, Krakov və s. ölkələrdir.

***

The "Low Dimensional Materials Research Center " was established by the Department of Physics and Electronics at Khazar University. Assoc. Prof. Matlab Mirzayev, doctor of physical sciences, was appointed director of the center. Matlab Mirzayev is a researcher at the Flerov Laboratory of Nuclear Reactions at the United Nuclear Research Institute of Russia.

The center's scientific endeavors encompass a variety of research projects focused on low-dimensional systems, including structures with dimensions smaller than three. The initial team comprises 11 people, including 1 doctor of sciences, 2 associate professors, 3 PhD holders, and 6 doctoral students. These members engage in scientific pursuits in physics across various institutions in Azerbaijan, Türkiye, and Russia.

The center collaborates with several international organizations, including National Research and Development Institute for Optoelectronics (Magurele, Romania), Joint Nuclear Research Institute of the International Intergovernmental Organization (Dubna, Russia), Institute of Electronics (Bulgarian Academy of Sciences, Sofia), Institute of Nuclear Research and Nuclear Energy (Bulgaria Academy of Sciences, Sofia), Eurasian National University named after L.N. Gumilyov (Astana, Kazakhstan), Institute of Nuclear Physics (Polish Academy of Sciences, Krakow and other countries).

# NEW RESEARCH CENTERS ESTABLISHED AT KHAZAR UNIVERSITY

*Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, issued an order to establish scientific research centers at Khazar University. This initiative aims to enhance scientific research efforts and transform Khazar University into a research-focused university. Each center will function autonomously according to its charter and will be managed by an appointed director.*

## NƏZƏRİ FİZİKA ELMİ - TƏDQİQAT MƏRKƏZİ
## THEORETICAL PHYSICS RESEARCH CENTER

Xəzər Universitetində Fizika və elektronika departamenti tərəfindən Nəzəri Fizika Elmi-Tədqiqat Mərkəzi fəaliyyətə başlayıb. Mərkəzin direktoru fizika üzrə fəlsəfə doktoru Şahin Mamedov təyin edilib.

Dos. Şahin Mamedov Bakı Dövlət Universitetinin Fizika Problemləri İnstitutunun Nəzəri Fizika departamentinin aparıcı elmi işçisidir.

Mərkəz 3 bölmədən ibarətdir: Yüksək enerjilər fizikası, Qravitasiya və kosmologiya, Kondensləşmiş maddə fizikası. Yüksək Enerjilər Fizikası bölməsində adronların qarşılıqlı təsiri holoqrafik kvant xromodinamikası modelləri çərçivəsində öyrənilir. Qravitasiya və kosmologiya bölməsi təbii dünyanı idarə edən əsas qanunlarla bağlı dərin maraqdan irəli gələn nəzəri tədqiqat qrupudur. Kondensləşmiş maddə fizikası bölməsində isə kondensləşmiş hal nəzəriyyəsinin məsələləri araşdırılır və tədqiqatın tematik sahələri bunlardır: aşağı ölçülü strukturlarda kvant nəqli, aşağı ölçülü kvant materialları, kvant qraflar və şəbəkələri, kvant texnologiyaları, eləcə də keçirici polimerlərdə yük dinamikasının modelləşdirilməsi. Mərkəzin ilkin tərkibi 14 nəfərdən ibarətdir və onun 3 nəfəri elmlər doktoru və professor, 4 nəfəri fəlsəfə doktoru, 7 nəfəri isə doktorantdır. Üzvlər Azərbaycan, Türkiyə, Rusiya, Özbəkistan, İran, Koreya, Brazilya, kimi ölkələrin elm qurumlarında fizika sahəsi üzrə elmi fəaliyyət göstərirlər.

***

The "Theoretical Physics Scientific Research Center" has been launched by the Department of Physics and Electronics at Khazar University.

Assoc. Prof. Sahin Mamedov, Doctor of Philosophy in Physics, was appointed the director of the center. Sahin Mamedov is a leading researcher at the Department of Theoretical Physics of the Institute of Physics Problems of Baku State University.

The center comprises three departments: High Energy Physics, Gravitation and Cosmology, and Condensed Matter Physics. Within the High Energy Physics department, research focuses on exploring



*Şahin Mamedov*

hadron interactions using holographic quantum chromodynamics models. The Gravitation and Cosmology Division is dedicated to theoretical investigations into the fundamental principles governing the universe. In the Condensed Matter Physics section, the center delves into condensed state theory, focusing on areas such as quantum transport in low-dimensional structures, low-dimensional quantum materials, quantum graphs and networks, quantum technologies, and modeling of charge dynamics in conducting polymers. Initially, the center comprises 14 individuals, including 3 doctors of sciences and professors, 4 doctors of philosophy, and 7 doctoral students. These members engage in physics-related scientific activities across various institutions in countries like Azerbaijan, Türkiye, Russia, Uzbekistan, Iran, Korea, and Brazil.

# RİYAZİYYAT VƏ ONUN TƏTBİQLƏRİ ELMİ-TƏDQİQAT MƏRKƏZİ

Xəzər Universitetində Riyaziyyat departamenti tərəfindən Riyaziyyat və Onun Tətbiqləri Elmi-Tədqiqat Mərkəzi yaradılıb. Mərkəzin direktoru Prof. Vüqar İsmayılov, həmdirektoru Prof. Anar Əhmədov və Xəzər Universiteti üzrə koordinatoru universitetin Riyaziyyat departamentinin müdiri Əli Hüseynli təyin ediliblər.



*Vüqar İsmayılov*

Vüqar İsmayılov bir müddət İsrail Texnologiya İnstitutunda işləmiş, müntəzəm olaraq Oksford Universitetinə məruzəçi kimi dəvət olunan, Azərbaycanın beynəlxalq miqyasda tanınan riyaziyyatçısıdır. Bir müddət əvvəl onun monoqrafiyası Amerika Riyaziyyat Cəmiyyəti (AMS) tərəfindən nəşr olunub. Qeyd edək ki, bu, müsəlman ölkələrində, həmçinin Gürcüstan və Ermənistanda fəaliyyət göstərən riyaziyyatçılar arasında yeganə nümunədir.

Anar Əhmədov Amerikada - Kaliforniya Dövlət Universitetində bakalavr, İrvaynedəki Kaliforniya Universitetində doktorantura təhsili alıb, hazırda Minnesota Universitetində tam ştatlı professor işləyir. Anar Əhmədov riyaziyyatın Cəbri Topologiya (Algebraic Topology) sahəsində dünyada tanınmış

# CENTER FOR MATHEMATICS AND ITS APPLICATIONS

The scientific- research center titled "Center for Mathematics and its Applications" was established by the Department of Mathematics at Khazar University. Professor Vugar Ismayilov has been appointed as the director of the center, while Prof. Anar Ahmadov will serve as the co-director, and Ali Huseynli, the head of Khazar University's Mathematics Department, has been appointed as a coordinator.

Vugar Ismayilov, a renowned mathematician from Azerbaijan, has previously worked at the Israel Institute of Technology and is frequently invited as a speaker at Oxford University. His monograph was recently published by the American Mathematical Society (AMS), a unique achievement among



*Anar Əhmədov*

mathematicians in Muslim countries, as well as in Georgia and Armenia

Anar Ahmadov pursued his bachelor's degree at California State University and completed his doctoral studies at the University of California, Irvine. Currently, he holds a full professorship at the University of Minnesota. He is globally recognized for his expertise in the field of Algebraic Topology, and for his scientific achievements, he has been awarded some of the most prestigious scholarships in the field of mathematics, including the Humboldt

mütəxəssisdir və elmi uğurlarına görə Təcrübəli Tədqiqatçıların Humbolt Tədqiqat Təqaüdü, 2020-ci il üçün Amerika Riyaziyyat Cəmiyyətinin Təqaüdü (Topologiyanın əsas problemlərinin tədqiqinə töhfələr üçün) riyaziyyatşıların 2018-2022-ci illərdə elmi əməkdaşlığı üçün Saimons Qrantı kimi riyaziyyat sahəsində ən mötəbər təqaüdləri qazanmış, Harvard və digər məşhur universitetlərdə dəvətli professor işləmişdir.

Mərkəzin ilkin tərkibi 12 nəfərdən ibarətdir və onun 6-sı xaricdə yaşayan riyaziyyatçılardır.



Əli Hüseynli

***

Research Fellowship for Experienced Researchers, the American Mathematical Society Fellowship for 2020, in recognition of his contributions to core problems in topology, and the Simons Collaboration Grant for Mathematicians 2018-2022. Additionally, he has served as an invited professor at Harvard University and other renowned institutions.

The initial team of the center consists of 12 people, 6 of whom are mathematicians living abroad.

## MƏDƏNİ ANTROPOLOGİYA VƏ FOLKLOR İNSTİTUTU

## INSTITUTE OF CULTURAL ANTHROPOLOGY AND FOLKLORE

Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamenti tərəfindən Mədəni Antropologiya və Folklor İnstitutu (MAFİ) yaradılıb. İnstitutun direktoru Prof. Ali Duymaz, koordinatoru isə Dos. Aynur Qəzənfərqızı təyin edilib.

Professor Ali Duymaz Türkiyə Balıkesir Universitetində Fənn-Ədəbiyat Fakültəsində Türk Dili və Ədəbiyyatı Bölümünün başqanıdır. Həmçinin, UNESCO Türkiyə Təmsilçiliyində Komissiya üzvüdür. Daha öncə Balıkesir Universitetində prorektor, dekan kimi vəzifələrdə çalışıb. Türk folklorşünaslığında özəlliklə dastan ənənəsi, Türk mifologiyası, Türk xalqları folkloru sahələrində bir çox dəyərli mövzularda araşdırmaları var.

Dos. Aynur Qəzənfərqızı 2017-ci ildən Xəzər Universitetində dərs deməyə başlayıb. 2019-cu ildən isə Dillər və ədəbiyyatlar departamentinin tam ştat müəllimi kimi fəaliyyət göstərir. Daha öncə AMEA Folklor İnstitutunda və Bakı Avrasiya Universitetində işləyib. 2019-2021-ci illərdə Çinin Xbay Xarici Tədqiqatlar Universitetində (Hebei Foreign Studies University) Azərbaycan dili müəllimi kimi çalışıb. Qumuq folkloru, Türk mifologiyası və Tenqrizm sahələrində tədqiqatları var.

Mərkəzin ilkin tərkibi 28 nəfərdən ibarətdir və

*(Ardı səh.24-də)*

Institute of Cultural Anthropology and Folklorwas established by the Department of Languages and Literatures at Khazar University. The director of the center was Prof. Ali Duymaz, and the coordinator was Assoc. Prof. Aynur Gazanfargizi.

Professor Ali Duymaz is the head of the Turkish Language and Literature Department at the Faculty of Science and Literature at Balıkesir University, Türkiye. Also, he is a Commission Member in the Delegation of Türkiye to UNESCO. Previously, he worked as vice-rector and dean at Balıkesir University. He has researches on many valuable topics in Turkish folklore studies, especially in the fields of epics, Turkish mythology, folklore of Turkic peoples.

Assoc. Prof. Aynur Ghazanfargizi has been teaching at Khazar University since 2017. Since 2019, she has been working as a full-time teacher of the Department of Languages and Literatures. Prior to this, she held positions at the ANAS Institute of Folklore and Baku Eurasian University. From 2019 to 2021, she taught Azerbaijani language at Hebei Foreign Studies University, China. Her research interests encompass Kumuk folklore, Turkic mythology, and Tengrism.

The initial lineup of the center comprises 28

*(To be continued page 24)*



*Ali Duymaz*

onun 14 nəfəri professor, 7 nəfəri dosent, 4 nəfəri doktor, 3 nəfəri elmi adsızdır. Üzvlər Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Rusiya (Dağıstan MR, Gorno Altaysk, Krım, Tatarıstan), Macarıstan, Moldova, İsveç, Gürcüstan və İraq kimi ölkələrin elm qurumlarında filoloji sahədə fəaliyyət göstərirlər.

individuals, including 14 professors, 7 associate professors, 4 Ph.D. holders, and 3 other members. These members hail from philology research institutions across various countries, including Azerbaijan, Türkiye, Uzbekistan, Kazakhstan, Kyrgyzstan, Russia (Dagestan MR, Gorno Altaysk, Crimea, Tatarstan), Hungary, Moldova, Sweden, Georgia, and Iraq.



*Aynur Qəzənfərqızı*

## ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI

## NEXT MEETING OF SCIENTIFIC COUNCIL

Fevralın 29-da Xəzər Universiteti Elmi şurasının növbəti iclası oldu. İclası universitetin rektoru dosent İradə Xəlilova açaraq, gündəlikdəki məsələləri elmi şura üzvlərinin diqqətinə çatdırdı. İclasın sədri gündəliyin birinci məsələsi olan doktorantlar və dissertantların dissertasiya mövzularının adları və elmi rəhbərləri haqqında məlumat vermək üçün doktorant və dissertantlara söz verdi.

Hər bir doktorant və dissertant qısa şəkildə araşdıracaqları dissertasiya işlərinin aktuallığı və məqsədi barədə məlumat verdi. Şura üzvləri dissertasiya işlərinin adları ilə əlaqəli bəzi təkliflər irəli sürdülər. Təkliflər nəzərə alınaraq, dissertasiya mövzularının adları və elmi rəhbərlər təsdiq olundu.

Gündəliyin ikinci məsələsi olan imtahan sessiyasının nəticələri haqqında məlumatı Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev təqdim etdi. O, imtahanda iştirak edən qrupların sayı, fakültələr üzrə müvəffəqiyyət və keyfiyyət gös-

On February 29, the next meeting of Khazar University Scientific Council was held. The university's rector, Assoc. Prof. Irada Khalilova, initiated the meeting by addressing the agenda topics to the scientific council members. The meeting chairperson then allowed doctoral students to present the titles of their dissertation topics and their respective academic supervisors, marking the first agenda item. Each doctoral candidate provided a brief overview of the significance and objectives of their research work. Council members offered suggestions concerning the dissertation titles, which were taken into consideration.After considering the suggestions, the titles of the dissertation topics and their academic supervisors were approved.

The Vice-Rector for Educational Affairs, Mahammad Nuriyev, provided an update on the exam session results, which constituted the second agenda item. He outlined details such as the




*Günel Bahəddinova* *İradə Xəlilova*

təriciləri, cərimə və tamamlama imtahanları haqqında, eləcə də digər məsələlərlə bağlı məlumat verdi. Şura üzvləri tərəfindən müzakirələr aparılaraq, nəticələrin daha da keyfiyyətli olması üçün müəyyən təkliflər irəli sürüldü.

Gündəliyin üçüncü məsələsi olaraq Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev tərəfindən ali məktəblərin bakalavr pilləsi üçün hazırlanmış “Azərbaycan millətşünaslığına giriş” adlı tədris metodiki vəsaitin çapa təqdim olunması barədə məlumatı şuranın elmi katibi Günel Bahəddinova diqqətə çatdırdı. İclas iştirakçıları tərəfindən məsələ ilə bağlı müzakirə aparıldı.

Elmi Şuranın növbəti məsələsi barədə iclasın sədri məlumat verdi. Bildirdi ki, Xəzər Universitetinin hər bir elmi işçisi çalışmalıdır ki, yüksək indeksləşmiş jurnallarda məqalələr çap etdirsin. Bunun üçün həmin əməkdaşlara universitet tərəfindən hər cür dəstək veriləcək.

Elmi şuranın gündəliyindəki bütün məsələlər müzakirə olundu və müvafiq qərarlar qəbul edildi.

***

number of participating groups, success rates across faculties, retake and supplementary exams, and other related matters. Council members engaged in discussions and suggested measures to enhance result quality.

Gunel Bahaddinova, the scientific secretary of the council, addressed the third agenda item, focusing on the publication of educational material titled "Introduction to Azerbaijan National Studies," authored by Dr. Orkhan Valiyev, the Department Head of Political Sciences and Philosophy, for bachelor-level higher education institutions. The attendees deliberated on this matter during the meeting. The chairperson then introduced the subsequent agenda item, emphasizing the importance of Khazar University researchers striving to publish articles in highly indexed journals. The university will provide comprehensive support to facilitate this endeavor for all staff.



*Rövşən Abbasov* *Cabir Xəlilov*

All agenda items were thoroughly discussed during the scientific council meeting, and appropriate decisions were reached.



# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN PROFESSORU M.Ə.RƏSULZADƏNİN YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏDBİRLƏRDƏ

# DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY PROFESSOR PARTICIPATES IN M. A. RASULZADE ANNIVERSARY EVENTS

Azərbaycanın görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi ilə bağlı müxtəlif təşkilat və qurumlarda tədbirlər davam edir.

Yanvarın 29-da AMEA-nın Əsas binasında "Milli istiqlalın görkəmli nümayəndəsi Məhəmməd Əmin Rəsulzadə" mövzusunda elmi konfrans keçirilib.

Konfransı giriş sözü ilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli açıb. Digər çıxış edənlərlə yanaşı, "Məhəmməd Əmin Rəsulzadə İrsini Araşdırma Mərkəzi"nin sədri, tarix elmlər doktoru, Xəzər Universitetinin müəllimi, professor Nəsiman Yaqublu da "Məhəmməd Əmin Rəsulzadənin mühacirət mətbuatı ilə bağlı fəaliyyəti" mövzusunda məruzə edib.

Bakının Səbail Rayon Mərkəzi Kitabxanasında da M.Ə.Rəsulzadəyə həsr edilmiş tədbir keçirilib.

Bu tədbirdə də professor N.Yaqublu M.Ə. Rəsulzadənin həyat və fəaliyyəti ilə bağlı maraqlı fikirlər söyləyib.

2024-cü il yanvarın 16-da AMEA-nın Dilçilik İnstitutunda, yanvarın 17-də Azərbaycan Milli Xalça Muzeyində kerçirilən tədbirlərdə də professor Nəsiman Yaqublu çıxış edib.

Various organizations and institutions are organizing activities marking the 140th anniversary of the birth of Azerbaijan's notable statesman, Mahammad Amin Rasulzadeh.

On January 29, a scientific conference titled "Prominent Representative of National Independence, Mahammad Amin Rasulzadeh" took place at the main building of ANAS.

Academician Isa Habibbeyli, president of ANAS, inaugurated the conference with his opening remarks.Among the speakers was Professor Nasiman Yagublu, chairman of the "Mahammed Amin Rasulzade Legacy Research Center" and a Doctor of History at Khazar University.

Professor Yagublu delivered a presentation on "Mahammed Amin Rasulzade's Activities Related to Emigration Press."An event honoring M. A. Rasulzadeh was also held at the Sabail District Central Library, where Professor N. Yagublu shared insightful thoughts about Rasulzadeh's life and endeavors.

On January 16, 2024, Professor Nasiman Yagublu spoke at events hosted by the Institute of Linguistics of ANAS, and on January 17, he addressed attendees at the National Carpet Museum of Azerbaijan.

## SUMQAYIT "DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ



## STUDENTS OF SUMGAYIT "DUNYA" SCHOOL AT KHAZAR UNIVERSITY

Fevralın 7-də Sumqayıt "Dünya" məktəbinin 6,7 və 8-ci IB sinif şagirdləri, sinif rəhbərləri və biologiya müəllimləri ilə birlikdə Xəzər Universitetində olmuşlar. Universitetin rektoru Dos. İradə Xəlilova şagirdləri qəbul etmiş, universitet haqqında məlumat verərək, ali təhsilin önəmindən danışmışdır.

Şagirdlər Həyat elmləri departamentinin müəllimləri ilə görüşmüş və Hüceyrə Patologiyası Tədqiqat Mərkəzində olmuşlar. Burada şagirdlərə laboratoriyada təhlükəsizlik qaydaları, avadanlıqlar və görülən işlər haqqında məlumat verilmişdir.

Neft mühəndisliyi departamentinin müdiri Dr. Elşən Abdullayevin elmi-tədqiqat layihəsində icraçı kimi çalışmağa başlayan 1-ci kurs tələbəsi Elvin Əlizadə şagirdlərə Marsda həyatın mövcudluğunun araşdırılması haqqında danışmış, Ph metr cihazının iş prinsipini əyani olaraq nümayiş etdirmişdir.

Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarova və departamentin dosenti Cavid Ocaqi ən əhəmiyyətli ərzaq bitkisi olan buğda və onunla bağlı aparılan molekulyar bioloji tədqiqatlar haqqında maraqlı məlumatlar vermişlər. Departamentin müəllimi Dos. Gülbəniz Qasımova şagirdləri işıq mikroskopu ilə tanış etmiş, tısbağanın çanağından hazırlanmış preparatı nümayiş etdirmiş, pulcuğu üzərində müşahidə olunan halqalar əsasında quru tısbağasının yaşını təyin etmişlər. Mikroskop vasitəsilə qan preparatında eritrositlər də müşahidə olunmuşdur.

Bütün təcrübələr şagirdlərin böyük marağına səbəb olmuş və onların çoxsaylı sualları müəllimlər tərəfindən cavablandırılmışdır.

On February 7, students from the 6th, 7th, and 8th IB classes of Sumgayit "Dunya" School, accompanied by their class leaders and biology teachers, paid a visit to Khazar University. The university's Rector, Assoc. Prof. Irada Khalilova, warmly welcomed the students, providing them with an overview of the university and emphasizing the significance of higher education.

During the visit, the students had the opportunity to meet with faculty members from the Department of Life Sciences and tour the Cell Pathology Research Center. At the research center, the students received information on safety protocols, laboratory equipment, and ongoing research activities.

Elvin Alizadeh, a first-year student actively involved in Dr. Elshan Abdullayev's scientific research project at the Oil and Gas Engineering Department, shared insights with the students regarding the investigation into potential life on Mars. Alizadeh also visually demonstrated the functioning of the Ph meter device, illustrating its principle of operation to the visiting students.Dr. Jamala Eldarova, Head of the Department of Life Sciences, and Associate Professor Javid Ojagi shared interesting insights into wheat, one of the most vital food plants, along with molecular biological research conducted on it. Additionally, Assoc. Prof. Gulbeniz Gasimova, a faculty member of the department, demonstrated a light microscope to the students. She showcased a preparation derived from a turtle's pelvis and accurately determined the age of a land turtle by examining the rings on its scales. Moreover, erythrocytes in a blood sample were observed through the microscope. These experiments captivated the students, eliciting numerous questions that were thoughtfully addressed by the teachers.

# TÜRKİYƏLİ QONAQLAR XƏZƏR UNİVERSİTETİNDƏ



*Hamlet İsaxanlı* *İradə Xəlilova*

Fevralın 8-də Türkiyə Marmara Vəqfinin başqanı Akkan Süver, Vəqfin Baş katibi Sezgin Biliç və İstanbul Qalata Universitetinin rektoru Özgür Çengel Xəzər Universitəsində oldular.

Qonaqları Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof. Akad. Hamlet İsaxanlı, universitetin rektoru Dos. İradə Xəlilova və İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli qarşıladı və tərəfləri maraqlandıran məsələlər müzakirə olundu. Akkan Süver Hamlet İsaxanlı, İradə Xəlilova və Ələvsət Əmirbəyliyə yeni çapdan çıxan kitabını hədiyyə verdi.

Özgür Çengel Qalata Universiteti və oradakı ixtisaslar haqqında geniş məlumat verdi və "Xəzər"in rəhbərliyini universitetə dəvət etdi.

# TURKISH GUESTS AT KHAZAR UNIVERSITY



*Sezgin Biliç, Özgür Çengel, Akkan Süver*

On February 8, the head of Türkiye's Marmara Foundation, Akkan Suver, the Secretary General of the Foundation, Sezgin Bilic, and the rector of Istanbul Galata University, Ozgur Cengel, visited Khazar University.

The guests were welcomed by the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, Rector of the University Assoc. Prof. Irada Khalilova and Director of Public Relations and Media Alovsat Amirbeyli, and discussions ensued on various topics of mutual interest. Akkan Suver presented Hamlet Isakhanli, Irada Khalilova and Alovsat Amirbeyli with a recently published book.

Ozgur Cengel provided detailed insights into Galata University and its academic specialties, extending an invitation to the Khazar University administration to visit their university.







*Ələvsət Əmirbəyli*

# "FORTIS GROUP" KURSUNUN DİNLƏYİCİLƏRİ VƏ MÜƏLLİM KOLLEKTİVİ İLƏ GÖRÜŞ

# MEETING WITH "FORTIS GROUP" COURSE STUDENTS AND TEACHING STAFF

Fevralın 9-da "Fortis Group" kursunun dinləyiciləri və müəllim kollektivi ilə Xəzər Universitetinin Mərmər salonunda görüş keçirilmişdir. Universitetin əməkdaşı Ülvi Babasoy Xəzər Universiteti haqda geniş təqdimatla çıxış etmiş və abituriyentlərin suallarını cavablandırmışdır.

Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Qardaşxan Əzizxanlı Xəzər Universitetinin təlim-tərbiyə və tədris keyfiyyəti ilə bağlı fikirlərini abituriyentlərlə bölüşmüşdür. Universitetin Psixologiya departamentinin koordinatoru Mələk Kərimova vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı tövsiyələrini vermişdir.

Sonda abituriyentlər universieti gəzmiş, kitabxana, dərs otaqları və laboratoriyalarla tanış olmuşlar.



*Mələk Kərimova*



On February 9, a meeting was held with the students and teaching staff of the "Fortis Group" course in the Marble Hall of Khazar University. Ulvi Babasoy, a university staff member, delivered a comprehensive presentation on Khazar University and addressed the questions of enrolees.

Gardashkhan Azizkhanli, a faculty member at the Department of Languages and Literatures and a Ph.D. in Philology, shared his views on the quality of education and teaching of Khazar University with the enrolees. Malak Karimova, the coordinator of the University's Psychology Department, gave recommendations on time management, eliminating anxiety during the exam process, and efficient work methods.

The session concluded with a university tour, enabling enrolees to explore the library, classrooms, and laboratories.




*Rövşən Abbasov*

# ABŞERON MİLLİ PARKINDA

# AT ABSHERON NATIONAL PARK

Fevralın 9-da Xəzər Universitetinin Ekoloji Tədqiqat Mərkəzi və Abşeron Milli Parkı birlikdə Abşeron Milli Parkının yaranmasının 19 illiyi münasibətilə maarifləndirici tədbir keçiriblər. Zirə qəsəbə məktəblilərinin iştirakı ilə keçirilən tədbirdə Azərbaycanın təbiət guşələrini tərənnüm edən Azərbaycan Fotoqraflar Birliyinin təmsilçisi, tanınmış fotoqraf Aydın Mehdiyevin "Təbiətə dost ol!" adlı fərdi sərgisi nümayiş etdirilmişdir.

"Tullantını azalt" və "Təkrar emal et" çağırışları isə Xəzər Universiteti Ətraf Mühit Mərkəzinin direktoru, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın üzvü Rövşən Abbasovun təqdimatında yer

The Ecological Research Center of Khazar University collaborated with Absheron National Park to host an educational event on February 9, 2024, marking the 19th anniversary of the park's establishment.The event, attended by students from Zira settlement school, featured a personal exhibition by renowned photographer Aydin Mehdiyev, a representative of the Azerbaijan Photographers' Union, known for capturing the beauty of Azerbaijan's natural landscapes. A. Mehdiyev's exhibition, titled "Be a Friend to Nature!", showcased the diverse natural wonders of Azerbaijan.

Rovshan Abbasov, director of the Environmental Center at Khazar University and a member of the Public Council under the Ministry of Ecology and Natural Resources, emphasized the importance of the





alıb. R.Abbasov plastik tullantıların həyatımıza çox ciddi şəkildə daxil olduğunu diqqətə çatdırıb: "Tullantılar təmizlənsə, təbiət azad olacaq. Tullantılar təkcə plastik tullantılar deyil, çirkab suları, ətraf mühitə atılan karbon emissiyaları və digər təhlükəli çirkləndiricilər nəzərdə tutulur. Öncəliklə, tullantılardan azad olmalıyıq. Bunun üçün daha az qablaşdırılan əşyalardan istifadə edə bilərik. Əgər bu tullantılar azalmasa, gələcəyə çox ciddi ziyan dəyəcək".

Tədbirdə Ekologiya və Təbii Sərvətlər nazirliyinin nümayəndələri, jurnalistlər və QHT əməkdaşları iştirak ediblər.

messages "Reduce your waste" and "Recycle" during his presentation. He highlighted the significant impact of plastic waste on our environment, stating that cleaning up waste is essential for the preservation of nature. R. Abbasov stressed that waste encompasses not only plastic but also sewage, carbon emissions, and other hazardous pollutants. He emphasized the urgent need to minimize waste generation, suggesting the reduction of packaging as a viable solution. Failure to address this issue, R. Abbasov warned, will lead to severe consequences for the future.

The event saw participation from representatives of the Ministry of Ecology and Natural Resources, journalists, and members of NGOs.



## ÖZBƏKİSTANLI QONAQLAR "XƏZƏR"DƏ

Fevralın 9-da Özbəkistan Navoi İnnovasiyalar Universitetinin təsisçisi Urolbek Normuratov, universitetin prorektoru Prof. Şerzod Atamuradov və digər şəxslər Xəzər Unversitetində oldular. Qonaqları Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı qəbul etdi. H.İsaxanlı qonaqlara universitetin yaradılması və bu günə kimi gördüyü işlər haqqında danışdı.

Özbəkistanlı qonaqlar Navoi İnnovasiyalar Universiteti haqqında məlumat verdilər. Onlar bundan sonra Xəzər Universiteti ilə ikitərəfli əlaqələrin daha da genişləndirilməsində maraqlı olduqlarını bildirdilər. Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova qonaqlara universitetdə həyata keçirilən tədris haqqında məlumat verdi. Görüşün sonunda H.İsaxanlı qonaqlara kitablarını hədiyyə verdi.

İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli qonaqları universitetlə tanış etdi.

## KHAZAR UNIVERSITY WELCOMES GUESTS FROM UZBEKISTAN

On February 9, Urolbek Normuratov, founder of Navoi Innovation University of Uzbekistan, vice-rector of the university Sherzod Atamuradov and others visited Khazar University. Prof. Acad.Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, warmly welcomed the guests from Uzbekistan. H. Isakhanli informed the guests about the university's establishment and its accomplishments to date.

The visitors provided insights into Navoi University of Innovations and expressed interest in strengthening bilateral relations with Khazar University. Khazar University's Rector, Assoc. Prof. Irada Khalilova, briefed the guests on the educational programs offered at the university.

Concluding the meeting, H. Isakhanli presented his books to the guests, while Alovsat Amirbeyl, the Director of Public Relations and Media, introduced them to the university.

## "TÜRK DÜNYASI TƏHSİL SƏRGİSİ"

## "TURKISH WORLD EDUCATION EXHIBITION"




*Əlövsət Əmirbəyli, Urolbek Normuratov, Şerzod Atamuradov*

Fevralın 10-da Bakıda "Türk Dünyası Təhsil Sərgisi" adlı tədbir keçirildi. Əsas məqsəd türk dünyasının perspektivli universitetlərini bir araya gətir-

On February 10, Baku hosted an event entitled the "Turkish World Education Exhibition."The primary objective was to unite promising universities from the Turkish



*Əli Mirzəzadə*

mək, onlar arasında ikili əməkdaşlıqları gücləndirmək və həmin universitetlərin yerli iştirakçılar arasında daha da tanınmasına şərait yaratmaq idi. Sərgidə iştirak edən yerli universitetlərdən biri də Xəzər Universiteti oldu.

Sərgi Xəzər Universitetinin İctimaiyyətlə əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəylinin açılış nitqi ilə başlandı. Əlövsət Əmirbəyli tərəfindən türk dünyasının məşhur universitetləri arasında əməkdaşlığın labüdlüyü və bunun ciddi inkişafa səbəb olacağı vurğulandı. Özbəkistanlı qonaqlar Urolbek Normuratov və Şerzod Atamuradov da sərgidə iştirak ediblər.

Sərgi zamanı Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatorları Arzu Bədəlova və Əli Mirzəzadə tərəfindən iştirakçıların Xəzər Universiteti barəsindəki suallarına cavab verilmiş, onlar universitetdə mövcud olan şərait, təqaüd imkanları və universitetin qəbul şərtləri haqqında məlumatlandırılmışlar.

world, enhance bilateral cooperation among them, and foster greater recognition of these institutions among local participants. Khazar University was among the local universities represented at the exhibition.

The event commenced with an opening speech delivered by Alovsat Amirbeyli, the Director of Public Relations and Media at Khazar University. A. Amirbeyli underscored the importance of collaboration among renowned universities in the Turkish world, emphasizing its potential for substantial development. Guests from Uzbekistan Urolbek Normuratov and Sherzod Atamuradov attended the exibition as well.

During the exhibition, the head of Khazar University's international relations department Fatima Valiyeva and her coordinators Arzu Badalova and Ali Mirzazade addressed participants' questions regarding Khazar University. They provided information about the university's facilities, scholarship offerings, and admission criteria.

# ƏCNƏBİ TƏLƏBƏLƏR KLUBUNUN NÖVBƏTİ MUZEY GÜNÜ

# NEXT MUSEUM DAY BY INTERNATIONAL STUDENTS CLUB

Fevralın 11-də Xəzər Universitetinin Əcnəbi tələbələr klubu universitetin yerli və xarici tələbələri üçün növbəti "Muzey Günü" tədbiri keçirib.

Ekskursiyada Əcnəbi tələbələr klubunun sosial media meneceri Nigar Əsgərova və tədbirlər üzrə koordinator Jalə Zeynallı iştirak ediblər.

Gəzinti çərçivəsində ilkin olaraq Novxanı qəsəbəsindəki "Farhause" Neon Ev Muzeyinə ekskursiya təşkil edilib. Muzeydə olduqları müddətdə tələbələr oradakı rəsm əsərləri barədə fikir mübadiləsi aparıblar.

Günün sonunda isə tələbələr dünyada ilk tanker-muzeyi olan Suraxanı Gəmi Muzeyinə gedərək, orada toplanmış eksponatlarla bələdçinin köməyi ilə tanış olublar.

Gəzintinin əsas məqsədi ölkə ərazisindəki muzeylərlə tanış olmaq və tələbələr arasında dil fərqini unutduran ünsiyyət yaratmaq olub.

February 11, the International Students Club at Khazar University organized another "Museum Day" event, welcoming both local and international students.

Nigar Asgarova, the club's social media manager, and Jala Zeynalli, the event coordinator, participated in the excursion.

The day began with a visit to the Farhouse Neon Art Museum, where students engaged in discussions about the artworks on display.

Later, the group visited the Surakhani Ship Museum, the world's first tanker-turned-museum, and explored the exhibits with the assistance of a guide.

The primary objective of the excursion was to introduce students to museums in the country and foster communication among them, transcending language barriers.




*Suraxanı Gəmi Muzeyində*




## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ “UZBEK MATHEMATICAL JOURNAL” JURNALINDA

## ARTICLE BY MATHEMATICS DEPARTMENT PROFESSOR IN 'UZBEK MATHEMATICAL JOURNAL'

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin “q-multiplicative Sturm-Liouville problem” (“q-multiplikativ Şturm-Liuvill məsələsi”) adlı birinci müəllifi olduğu məqalə “Uzbek Mathematical Journal” jurnalında (2023, Cild 67, № 3) dərc olunmuşdur.

Qeyd edək ki, “Uzbek Mathematical Journal” jurnalı MathSciNet (Mathematical Reviews) və Zentralblatt MATH bazalarında indekslənib.

The article titled "q-multiplicative Sturm-Liouville problem", the first author of which is prof. Bilander Allahverdiyev, was published in the "Uzbek Mathematical Journal." (2023, Vol. 67, No. 3).

Note that "Uzbek Mathematical Journal" is indexed in MathSciNet (Mathematical Reviews) and Zentralblatt MATH databases.




## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ “INTERNATIONAL JOURNAL OF GEOMETRIC METHODS IN MODERN PHYSICS” JURNALINDA

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin “Titchmarsh-Weyl theory for impulsive q-Dirac equation” (“İmpulsiv q-Dirak tənliyi üçün Titçmarş-Veyl nəzəriyyəsi”) adlı birgə məqaləsi “International Journal of Geometric Methods in Modern Physics” jurnalında (2024, Cild 21, № 2) dərc edilmişdir. Qeyd edək ki, “International Journal of Geometric Methods in Modern Physics” jurnalı “Web of Science” və “Scopus” verilənlər bazalarında indeksləşdirilib.

Bu məqalədə impulsiv q-Dirak tənliyi üçün Titçmarş-Veyl nəzəriyyəsi tədqiq edilir.

## JOINT ARTICLE BY MATHEMATICS DEPARTMENT PROFESSORS IN "INTERNATIONAL JOURNAL OF GEOMETRIC METHODS IN MODERN PHYSICS"

The joint article of Khazar University founder, chairman of the Board of Directors and Trustees, professor of the Department of Mathematics, academician Hamlet Isakhanli and professor of the same department Bilander Allahverdiyev entitled " Titchmarsh-Weyl theory for impulsive q-Dirac equation " was published in "International Journal of Geometric Methods in Modern Physics" ( 2024, Vol. 21, No. 2). Note that "International Journal of Geometric Methods in Modern Physics" is indexed in "Web of Science" and "Scopus" databases.

In this paper, the Titchmarsh-Weyl theory of the impulsive q-Dirac equation is studied.

*https://www.worldscientific.com/doi/10.1142/S021988782450049X*
*https://www.worldscientific.com/worldscinet/ijgmmp*

## TEXNİKİ UNİVERSİTETDƏ GÖRÜŞ

Fevralın 13-də Azərbaycan Texniki Universitetində bütün universitetlərin ictimai əlaqələr üzrə rəhbərlərinin geniş toplantısı keçirildi. Toplantını giriş sözü ilə Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya Şöbəsinin müdiri Səbuhi Rzayev açaraq, toplantının tanışlıq xarakteri, üniversitet nümayəndələri ilə üz-üzə görüşmək, ictimai əlaqələrin genişləndirilməsi məqsədi daşıdığını bildirdi.

Toplantıda Xəzər Universitetindən İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak etdi. O, təhsil nazirliyi nümayəndələrinə və toplantı iştirakçılarına universitetdə ictimai əlaqələr sahəsində görülən işlər haqqında geniş məlumat verdi.

Toplantıda iştirakçıları bu cür görüşlərin müntəzəm keçirilməsi və ali təhsil müəssisələrində ictimaiyyətlə əlaqələri daha da genişləndirmək haqqında yekdil fikrə gəldilər.

## MEETING AT TECHNICAL UNIVERSITY

On February 13, a significant gathering of public relations directors of all universities was held at Azerbaijan Technical University. Sabuhi Rzayev, head of the Public Relations and Communication Department of the Ministry of Science and Education, opened the meeting with an introductory speech, stating that the purpose of the meeting was to foster direct acquaintance between university representatives and to enhance public relations.

Public Relations and Media Director Alovsat Amirbeyli from Khazar University attended the meeting. He provided comprehensive insights into the university's public relations efforts to both Ministry of Education representatives and other participants.

During the meeting, attendees unanimously agreed on the importance of regularly convening such gatherings and further expanding public relations initiatives within higher education institutions.



*Elvin Abbasbəyli*

## "TƏRCÜMƏ MƏRKƏZİ"NİN KOORDİNATORU MƏMUN UNİVERSİTETİNDƏ

Fevralın 13-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin şifahi tərcümə dərsləri müəllimi və universitetdə fəaliyyət göstərən "Tərcümə mərkəzi"nin koordinatoru Dr. Elvin Abbasbəyli Özbəkistanın Ürgənc şəhərində yerləşən Məmun Universitetində keçirilmiş "Dillərarası və mədəni davamlılıq: çağırışlar və yeni istiqamətlər" adlı elmi-praktik konfransda "Şifahi tərcümənin dünəni, bu günü və sabahı" adlı məruzə ilə çıxış edib.

Konfransda Özbəkistandan, Qazaxıstandan və ABŞ-dan olan tədqiqatçıların da öz araşdırma sahələri ilə bağlı məruzələri dinlənilib.

Konfransdan bir gün öncə Məmun Universitetinin rektoru Arslonbek Nurjonov və Beynəlxalq əlaqələr üzrə prorektor Bahrom Yuldaşev "Tərcümə mərkəzi"nin koordinatoru Elvin Abbasbəyli ilə görüş keçirərək, şifahi tərcümə sahəsində gələcəkdə Məmun Universitetinin tərcümə fakültəsinin tələbələri üçün ustad dərslərin (master classes) təşkil edilməsi imkanları haqqında müzakirələr aparıblar.

## COORDINATOR OF "TRANSLATION AND INTERPRETING CENTER" AT MAMUN UNIVERSITY

On February 13, Dr. Elvin Abbasbeyli, a faculty member of the English Language and Literature Department and coordinator of Khazar University's "Translation and Interpreting Center," presented a report titled "Interpreting: Past, Present, and Future" at the scientific-practical conference titled "Cross-Linguistic and Cultural Sustainability: Challenges and New Avenues," held at Mamun University in Urgench.

During the conference, researchers from Uzbekistan, Kazakhstan, and the United States presented made reports on their respective research areas.

The day before the conference, Mamun University Rector Arslonbek Nurjonov and Vice-Rector of International Relations Bahrom Yuldashev met with Elvin Abbasbeyli, coordinator of the "Translation and Interpreting Center," to discuss the potential organization of future master classes for students from Mamun University's Translation Faculty in the field of oral translation.

## İSMAYILLI RAYONU "NİYAL" KURSUNUN DİNLƏYİCİLƏRİ VƏ MÜƏLLİM KOLLEKTİVİ İLƏ GÖRÜŞ




*Ülvi Babasoy*

Fevralın 15-də İsmayıllı rayonu "Niyal" kursunun dinləyiciləri və müəllim kollektivi ilə Xəzər Universitetinin Mərmər salonunda görüş keçirilmişdir. Universitetin əməkdaşı Ülvi Babasoy Xəzər Universiteti haqda geniş təqdimatla çıxış etmiş və abituriyentlərin suallarını cavablandırmışdır.

Universitetin Psixologiya departamentinin koordinatoru Mələk Kərimova vaxtın idarə edilməsi,imtahan stresinin səbəbləri, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı tövsiyələrini vermiş və abituriyentlərin suallarını cavablandırmışdır.

Sonda abituriyentlər universiteti gəzmiş, kitabxana və dərs otaqları ilə tanış olmuşlar.

## MEETING WITH THE STUDENTS AND TEACHING STAFF OF ISMAYILLI "NIYAL" COURSE

On February 15, a meeting was held with the students and teaching staff of the Ismayilli "Niyal" course in the Marble Hall of Khazar University. Ulvi Babasoy, an employee of the university, gave a broad presentation about Khazar University and answered the questions of enrollees.

Malak Karimova, the coordinator of the University's Psychology Department, offered advice on time management, coping with exam stress, reducing anxiety during exams, and adopting effective study techniques and answered the enrolees' questions.

Following the session, the enrollees were given a tour of the university, allowing them to explore the library and classrooms.



## DÖVLƏT MİQRASİYA XİDMƏTİNDƏ ƏCNƏBİ İŞÇİ QÜVVƏSİNİ İŞƏGÖTÜRƏNLƏRLƏ GÖRÜŞ

Fevralın 15-də Dövlət Miqrasiya Xidməti əməkdaşlarının Azərbaycanda əcnəbi işçi qüvvəsini işəgötürənlərlə ənənəvi görüşü keçirilib. Görüşdə Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Turan Əlizadə, həmçinin digər müəssisə rəhbərləri, yerli və xarici fərdi sahibkarlar və onların nümayəndələri də iştirak ediblər.

Görüşün keçirilməsində məqsəd miqrasiya qanunvericiliyinə edilmiş son dəyişikliklər və əlavələr haqqında, həmçinin növbəti il üçün əmək miqrasiyası kvotası barədə işəgötürənlərə zəruri məlumatların verilməsi olub.

Qarşılıqlı fikir mübadiləsi zamanı işəgötürənlərin hüquq və vəzifələri, qanunvericilikdə edilmiş son dəyişikliklər barədə sahibkarlar və işəgötürənlər məlumatlandırılıblar. Həmçinin, əcnəbi işçi qüvvəsinə tələbatın təmin edilməsində yaranan çətinliklər, qarşıdakı il üçün əməkçi miqrantlara olan ehtiyaclara dair proqnoz-məlumatların hazırlanması və digər mövzular müzakirə edilib.

## STATE MIGRATION SERVICE HOSTS MEETING WITH FOREIGN LABOR EMPLOYERS

On February 15, the State Migration Service convened its traditional gathering with employers of foreign labor.

Attendees included Turan Alizadeh from Khazar University's international relations department, alongside enterprise managers, local and foreign private entrepreneurs, and their representatives.

The meeting aimed to update employers on recent changes to migration laws and the labor migration quota for the upcoming year.

During the mutual exchange of views, entrepreneurs and employers were informed about the rights and responsibilities of employers, the latest updates in the legislation. In addition, discussions covered the challenges in meeting the demand for foreign labor force, forecasting the needs of labor migrants for the year ahead etc.



*Turan Əlizadə*

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ BEYNƏLXALQ KONFRANSDA

# HISTORY AND ARCHAEOLOGY DEPARTMENT HEAD AT INTERNATIONAL CONFERENCE




*Telman Nüsrətoğlu*

Fevralın 16-da Azərbaycan Dövlət İqtisad Universitetində "Qlobal sistemlərdə yeni dövr, güc savaşları və Cənubi Qafqaz" adlı beynəlxalq konfrans keçirilib. Türkiyə Birlik və Həmrəylik Əsri Platformasının təşkil etdiyi bu tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Şimali Kipr Türk Respublikasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ufuk Turganer, İqtisad Universitetinin rəhbərliyi, mütəxəssislər, tələbələr iştirak ediblər.

Konfransın açılış panelində Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Türkiyənin tanınmış hərbi və təhlükəsizlik eksperti Abdullah Ağar, eləcə də jurnalist Sevil Nuriyeva regionda baş verən geosiyasi proseslərlə bağlı çıxışlar ediblər.

On February 16, the international conference " Era in Global Systems, Power Wars and the South Caucasus " was held at the Azerbaijan State University of Economics. TÜrkiye's ambassador to Azerbaijan Cahit Bagci, head of the Turkish Republic of Northern Cyprus representative office in Azerbaijan Ufuk Turganer, administration of the University of Economics, experts and students took part in this event organized by the Platform for the Century of Unity and Solidarity.

In the opening panel of the conference, Assoc. Prof. Telman Nusratoghlu, head of Khazar University's History and Archeology Department, Farid Shafiyev, chairman of the Board of the International Relations Analysis Center, Abdullah Agar, a well-known military and security expert of Türkiye, as well as journalist Sevil Nuriyeva spoke about the geopolitical processes taking place in the region.

# TÜRKİYƏLİ PROFESSORUN XƏZƏR UNİVERSİTETİNDƏ TƏLİMİ

# TRAINING OF TURKISH PROFESSOR AT KHAZAR UNIVERSITY



*Didem Buhari*



*Orxan Vəliyev, Mələk Kərimova, Məhəmməd Axundov, Alif Paramardhika*

Fevralın 12-16-da Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə Türkiyə Respublikası İzmir Katip Çelebi Universitetinin professoru Didem Buhari`nin "Siyasət və Beynəlxalq münasibətlərdə tədqiqat aparmaq: Kəmiyyət və keyfiyyət metodlarına giriş" mövzusunda təlimi keçirilib.

Təlimdə Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev, Psixologiya departamentinin koordinatoru Mələk Kərimova, departament müəllimləri, yerli, eləcə də əcnəbi doktorant və magistrantlar iştirak ediblər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof. Akad. Hamlet İsaxanlının açılış nitqi ilə təlim öz işinə başlayıb və gündə 2 dəfə olmaqla həftə ərzində davam





From February 12 to 16, Khazar University's Department of Political Sciences and Philosophy organized a training session led by Professor Didem Buhari from Izmir Katip Celebi University, Republic of Türkiye.

The training focused on "Researching Politics and International Relations: Introduction to Quantitative and Qualitative Methods."

Participants included Dr. Orkhan Valiyev, the head of Khazar University's Department of Political Sciences and Philosophy, as well as Malak Karimova, the coordinator of the Psychology Department, faculty members of the department, and both local and international doctoral and master's students.

edib.

Prof. Didem Buhari 5 gün müddətində akademik tədqiqat üçün vacib hesab edilən elmi tədqiqatın mahiyyəti, tədqiqatın qiymətləndirilməsi üçün meyarlar, düzgün mövzu seçimi, ədəbiyyat və istinadlar, sorğu və müsahibələrin düzgün alınması, siyasət və beynəlxalq münasibətlərdən müxtəlif nümunələr, etnoqrafik müşahidələr və sair anlayışlarla bağlı təlim keçirib.

İştirakçılar təlimdə öyrəndikləri nəzəri biliklərlə bağlı praktik günlük tapşırıqlar da yerinə yetiriblər.

Təlim fevralın 16-da Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilovanın və Prof. Akad. Hamlet İsaxanlının qonaq professor Didem Buhari`yə sertifikat və hədiyyə təqdimatları ilə öz işini yekunlaşdırıb.

Təlim iştirakçılarına da sertifikatlar təqdim olunub.




*Hamlet İsaxanlı*




*İradə Xəlilova*

The training commenced with an opening speech by Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, and continued throughout the week, with sessions held twice daily.

Prof. Didem Buhari led a comprehensive 5-day training session covering essential aspects of scientific research, including criteria for research evaluation, topic selection, literature review techniques, proper survey and interview methods, and practical examples from the fields of politics and international relations.

Participants engaged in daily practical tasks that complemented the theoretical knowledge imparted during the training.

The training concluded on February 16, with the presentation of certificates and gifts by Khazar University Rector Assoc. Prof. Irada Khalilova and Prof. Acad. Hamlet Isakhanli to guest Prof. Didem Buhari. Training participants were also presented with certificates.

**"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU**

# ƏDƏBİYYAT İNSTİTUTUNDA "ƏLİŞİR NƏVAİ VƏ ZAHİRƏDDİN MƏHƏMMƏD BABUR" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Özbəkistan Respublikasının Azərbaycandakı Səfirliyinin birgə təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada "Əlişir Nəvai və Zahirəddin Məhəmməd Babur" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Beynəlxalq elmi konfransı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açıb. Akademik İsa Həbibbəyli Azərbaycan-Özbəkistan elmi-ədəbi əlaqələrinin inkişafından danışıb, iki ölkənin tarixi köklərinin, mədəniyyətinin, dilinin, ədəbiyyatının bir-birinə yaxın olduğunu bildirib. O, 10 ildən çoxdur ki, Akademiyada Əlişir Nəvai və Zahirəddin Məhəmməd Babur yaradıcılığına həsr olunan birgə silsilə tədbirlərin keçirildiyini, AMEA-da özbək ədəbiyyatı klassiklərinin irsinin geniş tədqiq edildiyini diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli fevralın 14-də Milli Məclisdə baş tutmuş Prezident İlham Əliyevin andiçmə mərasimində dövlət başçısının türk dünyası ilə Azərbaycan Respublikasının əlaqələri haqqında irəli sürdüyü fikirləri xatırladıb. Qeyd edib ki, Prezident İlham Əliyev andiçmə mərasimində "Bizim ailəmiz Türk dünyasıdır. Bizim başqa ailəmiz yoxdur. Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir", - deyərək Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərinin olduğunu və ölkəmizin siyasətinin Türk Dövlətləri Təşkilatını gücləndirməkdən ibarət olduğunu vurğulayıb.

Hazırda Türk Dövlətləri Təşkilatının öz coğrafiyasını genişləndirməkdə olduğunu söyləyən akademik İsa Həbibbəyli bu təşkilatın Ağsaqqallar Şurasının, Türk Universitetlər Birliyinin, Qadınlar Birliyinin yaradıldığını bildirib. O, Türk Dövlətləri Təşkilatının elmi heyətinin də yaxın gələcəkdə formalaşdırılmasının zəruriliyini qeyd edib.

Alim Özbəkistanla davam edən elmi əlaqələrin daha da inkişaf etdirilməsinin önəmini vurğulayaraq, Akademiyanın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda özbək ədəbiyyatının araşdırılması üçün Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin, həmçinin Əlişir Nəvai Ədəbiyyatşünaslıq Mərkəzinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Bundan başqa, Əlyazmalar İnstitutunda yaradılan Türk əlyazmaları və Şərqşünaslıq İnstitutunda yaradılan Türk ölkələri ilə əlaqə şöbələrinin türk dünyasının görkəmli nümayəndələrinin yaradıcılığının öyrənilməsinə xidmət göstərdiyini bildirib.

"Böyük dövlətçilik ənənəsi olan Özbəkistan dünyaya Əlişir Nəvai, Zahirəddin Məhəmməd Babur kimi görkəmli şəxsiyyətlər bəxş etmişdir", - deyən AMEA prezidenti Baburun dünyaca məşhur "Baburnamə" əsərinin Özbəkistanın dövlətçilik prinsiplərini, dövlətçilik tarixini ədəbiyyat dili ilə ifadə edən nadir əsərlərdən olduğunu diqqətə çatdırıb. O, həmçinin Əlişir Nəvainin "Xəmsə"sinin türk dilində yazılmış ilk "Xəmsə" əsəri kimi Türk dünyasına böyük töhfə verdiyini vurğulayıb.

Akademik İsa Həbibbəyli ölkə başçısının "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" 25 yanvar




*Bahrom Aşrafxanov* *İsa Həbibbəyli*

2024-cü il tarixli Sərəncamına əsasən bu il ölkəmizdə Füzulinin yubileyinin geniş şəkildə qeyd edildiyini deyib. Əlavə edib ki, Əlişir Nəvaini özünün müəllimi hesab etmiş Məhəmməd Füzuli onun yaradıcılığından ciddi dərəcədə təsirlənmişdi. Əlişir Nəvai təkcə özbək xalqının deyil, türk dünyasının qüdrətli sənətkarıdır.

O, "Əlişir Nəvai və Zahirəddin Məhəmməd Babur" konfransını ortaq mədəniyyətimizi qiymətləndirməyə meydan açan əhəmiyyətli tədbir kimi səciyyələndirib, elmi konfransın işinə uğurlar arzulayıb.

Daha sonra AMEA rəhbəri 1926-cı ildə azərbaycanlı rəssam Əzim Əzimzadə tərəfindən çəkilən və yaxın günlərdə Əlyazmalar İnstitutunun fondundan tapılan Məhəmməd Füzulinin nadir fotosunu Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetindəki Məhəmməd Füzuli adına Azərbaycan Mədəniyyət Mərkəzinə hədiyyə etmək üçün cənab səfirə təhvil verib.

Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov son illərdə Əlişir Nəvai və Zahirəddin Məhəmməd Baburun zəngin yaradıcılıq irsinin öyrənilməsi, onların ölməz əsərlərinin ölkəmizdə və xaricdə təbliği, xatirələrinin əbədiləşdirilməsi istiqamətində bir sıra işlərin görüldüyünü söyləyib. Bildirib ki, müstəqillik illərindən başlayaraq təkcə Özbəkistanda deyil, Fransa, Belçika, Yaponiya, Koreya, Rusiya, ABŞ, Almaniya, Qazaxıstan və Azərbaycanda Əlişir Nəvainin yaradıcılığına həsr olunmuş çoxsaylı beynəlxalq konfranslar keçirilməkdədir.

Səfir Bakı şəhərində Əlişir Nəvainin heykəlinin ucaldılmasını qardaş ölkənin özbək şairinin xatirəsinə ehtiramının ifadəsi olduğunu deyib. Vurğulayıb ki, Əlişir Nəvainin müəllimi Nizami Gəncəvinin heykəlinin Özbəkistanın paytaxtı Daşkənddə ucaldılması da iki ölkə arasındakı birlik və qardaşlıq əlaqələrinin möhkəmliyindən xəbər verir.

Bəhram Aşrafxanov Zahiriddin Məhəmməd Baburun da dünya elminin və incəsənətinin inkişafına təsir edən böyük şəxsiyyətlərdən biri olduğunu bildirib: "Babur erkən yaşlarından o dövrdə bir sıra ölkələrin hökmdarları ilə sıx hərbi-siyasi əlaqələr təsis etmişdir. Onların arasında Azərbaycan xüsusi yer tutur və "Boburnoma"da Azərbaycanın adı dəfələrlə çəkilir".

Çıxışının sonunda səfir konfransın iki qardaş ölkənin elmi-mədəni əlaqələrinin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Konfransda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli çıxış edərək Azərbaycan-Özbəkistan xalqının qədim və zəngin ədəbiyyat ənənələrinə malik olduğunu




*Teymur Kərimli*

söyləyib. O, dahi Azərbaycan şairi Məhəmməd Füzulinin Əlişir Nəvaini ən böyük sənətkarlardan biri hesab etdiyini bildirib. Həmçinin türk dövlətinin sərkərdəsi və şairi olmuş böyük tarixi şəxsiyyətlər Zahirəddin Məhəmməd Babur və Şah İsmayıl Xətainin münasibətlərindən danışıb.

Konfransda Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru Almaz Ülvi Binnətova "Zahirəddin Məhəmməd Babur yaradıcılığında Əlişir Nəvai izləri" adlı geniş məruzə edib.

Özbəkistanlı alimlərdən Daşkənd İctimai Elmlər Universitetinin professoru, filologiya elmləri doktoru Sultanmurad Alim "Babur – nəvaişünas", Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin baş müəllimi, filologiya elmləri doktoru Gülbahar Aşurova "Bir əsrin iki mütəfəkkiri: Nəvai və Babur", Özbəkistan EA Ədəbiyyat, Dil və Folklor İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, professor Maqsud Asadov "Əlişir Nəvai yaradıcılığında "Təb" motivi", Kokand Universitetinin professoru, filologiya elmləri doktoru Zeba Qalibova "Siracəddin Səyyidin "Yüz ah Zahirəddin Məhəmməd Babur" dastanı haqqında" mövzusunda məruzələrlə çıxış ediblər.

Ədəbiyyat İnstitutunun alimlərindən Nizamişünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zəhra Allahverdiyeva "Nəvainin fars divanında Nizami Gəncəvi poeziyasının ənənələri", Füzulişünaslıq sektorunun müdiri, filologiya elmləri doktoru Ataəmi Mirzəyev "Azərbaycan lirik şeirində Nəvai təsirinin təzahür formaları", Nizamişünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Yelena Teyer "Nizami Gəncəvi və Nəvainin "Leyli və Məcnun" poemalarında faciəvi eşq mövsuzu: müqayisəli elmi təhlil", Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Yaşar Qasımbəyli "Nəvai "Xəmsə"sində bədii çevrilmə" məruzələri ilə konfransa qatılıblar.




*Almaz Ülvi Binnətova*

Sonda filologiya üzrə fəlsəfə doktoru Akif Azalp çıxış edərək konfransın əhəmiyyətindən danışıb.

# GÜLNAR SƏMANIN "SÖZÜMÜZ SÖZDÜR-2" KİTABI "GLOBEEDIT" NƏŞRİYYATINDA ÇAP OLUNUB




Gülnar Səmanın "Sözümüz sözdür-2" adlı publisistik məqalələrdən ibarət kitabı xaricdə "GlobeEdit" nəşriyyatında çap olunub. Məqalələr toplusu Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 3 oktyabr 2023-cü il 5 saylı qərarı ilə nəşr edilib.

Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülnar Səmanın bu kitabında ədəbiyyatşünaslıq sahəsində yazdığı məqalələri yer alıb. İlk məqalələr "Heydər Əliyevin obrazı müstəqillik illərində yazılmış poemalarda", "İlham Əliyev və Azərbaycan ədəbiyyatı" adlanır.

Məqalələrin bir qismi Vilayət Quliyev, Asif Rüstəmli, Gülhüseyn Hüseynoğlu, Məmməd İsmayıl, Maarif Həsənoğlu, Dəyanət Osmanlı, Elçin İsgəndərzadə, Əkbər Qoşalı kimi müəlliflərin yaradıcılığına həsr olunub. Gənc yazarlardan Aysel Xanlarqızı, Fərid Hüseyn, Səxavət Sahil, Ramil Mərzili, Ulucay Akifin kitabları haqqında məqalələr də kitabda toplanıb. Yusif Nəğməkar, Əsəd Cahangir, Rəşad Məcid, Zəlimxan Yaqub, Sabir Mustafa və digər şairlərin poemaları haqqında yazılara da yer ayrılıb. Eyni zamanda bölgə ədəbiyyatının tədqiqatına həsr edilmiş irihəcmli araşdırmalar da kitabda yayımlanıb.

Kitabın elmi redaktoru filologiya elmləri doktoru Elçin Mehrəliyevdir. Rəyçiləri filologiya elmləri doktoru, professor Cahangir Məmmədli və filologiya üzrə fəlsəfə doktoru, dosent Gülbəniz Babayevadır. Fotoqrafı isə Nofəl Ümiddir.

168 səhifəlik bu kitab müəllifin 2019-cü ildə işıq üzü görmüş "Sözümüz sözdür" kitabının davamıdır. ISBN-13: 978-620-6-79661-9 kodunu axtarış sistemlərində yığaraq, kitabı sifariş etmək mümkündür.

**Gülnar Səma**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



*Bəhruz Süleymanlı*

## NƏZƏRİ FİZİKA ELMİ -TƏDQİQAT MƏRKƏZİNİN AÇILIŞ SEMİNARI

Fevralın 19-da Xəzər Universitetinin Nəzəri Fizika Elmi - Tədqiqat Mərkəzinin açılış seminarı keçirilib. Seminarda Xəzər Universitetinin müəllim-professor heyəti, tələbələr və tədqiqat mərkəzinin əməkdaşları iştirak edib.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı tədbiri açaraq, mərkəzin işinə uğurlar arzuladı. Mərkəzin direktoru Şahin Məmmədov tədqiqat mərkəzinin fəaliyyət istiqamətləri və görüləcək işlər barədə geniş məlumat verdi.

Mərkəzin əməkdaşlarından biri olan Dr. Bəhruz Süleymanlı "Kondensə olunmuş hal və hipernüvə fizikasında orta sahə nəzəriyyəsi" mövzusunda çıxış edib və seminar iştirakçıların müzakirələri ilə öz işini başa çatdırıb.

Sonda məruzəçi Dr.Bəhruz Süleymanlıya sertifikat təqdim olunub.

## OPENING SEMINAR OF THE THEORETICAL PHYSICS SCIENTIFIC RESEARCH CENTER AT KHAZAR UNIVERSITY



*Hamlet İsaxanlı*

On February 19, the opening seminar of the "Theoretical Physics Scientific Research Center" of Khazar University was held. The seminar was attended by Khazar University teaching staff, students and staff of the research center. Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, opened the event and extended best wishes for the center's endeavors. The director of the center, Shahin Mammadov, provided a comprehensive overview of the activities of the research center and the work to be done.

Dr. Bahruz Suleymanli, one of the employees of the center, gave a speech on "Condensed state and mean field theory in hypernuclear physics" and concluded his work with the discussions of the seminar participants.

At the end, speaker Dr. Bahruz Suleymanli was presented with a certificate.



## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ İCTİMAİ RADİODA

Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr.Sevinc Qəmbərova İctimai Radioda 21 fevral-Beynəlxalq Ana Dili Gününə həsr edilmiş "Can, Azərbaycan!" verilişinin qonağı olub. Dr. Sevinc Qəmbərova bu günün mahiyyətindən, Azərbaycan dilinin tarixi köklərindən, türk dilləri ailəsində mövqeyindən, səciyyəvi xüsusiyyətlərindən, qloballaşma şəraitində Azərbaycan dilinə olan qayğıdan, dilin təmizliyini pozan amillərdən, kiçik yaşlarından başlayaraq uşaqların nitqinin düzgün formalaşdırılmasının vacibliyindən bəhs edib.

## LECTURER OF LANGUAGES AND LITERATURES DEPARTMENT AT PUBLIC RADIO

Dr. Sevinj Gambarova, a lecturer of the Department of Languages and Literatures of Khazar University, was a guest of the program "Can, Azerbaijan" broadcast on Public Radio dedicated to the February 21- International Mother Language Day . Dr. Sevinj Gambarova talked about the essence of today, the historical roots of the Azerbaijani language, its position in the family of Turkic languages, its characteristic features, the care for the Azerbaijani language in the context of globalization, the factors that violate the purity of the language, the importance of the correct formation of children's speech from a young age.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ "TÜRKİYƏ-AZƏRBAYCAN UNİVERSİTETİ" HAQQINDA

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr.Orxan Vəliyevin "Türkiyə-Azərbaycan Universiteti" ilə bağlı dəyərləndirməsi "Azərbaycan müəllimi" qəzetində dərc edilib. Müsahiblər sırasında Orxan Vəliyevlə yanaşı, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri və Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Cavid Vəliyev, Azərgaycan Turizm və Menecment Universitetinin Strateji inkişaf üzrə prorektoru Dr. Araz Aslanı, jurnalist, ekspert Rizvan Qənbərli də yer alıb. Dr. Orxan Vəliyev öz dəyərləndirməsində ortaq universitetin iki süveren qardaş dövlətin ali təhsil sahəsində birgə fəaliyyətini genişləndirəcəyini söyləyib.

## HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT WRITES ON "TÜRKIYE-AZERBAIJAN UNIVERSITY"

Khazar University Political Sciences and Philosophy Department Head Dr.Orkhan Valiyev's assessment of "Türkiye -Azerbaijan University" was published in the newspaper 'Azerbaijan Teacher'. In addition to Orkhan Valiyev, Dr. Javid Valiyev, head of the International Relations Education Center and lecturer at Khazar University's Political Sciences and Philosophy Department, Dr. Araz Aslani, vice-rector for strategic development of Azerbaijan Tourism and Management University, journalist and expert Rizvan Ganbarli were among the interviewees. In his assessment, Dr. Orkhan Valiyev said that the joint university will expand the joint activities of the two sovereign brother countries in the field of higher education.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏSİ *AZƏRTAC*-DA

## POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD'S ARTICLE IN *AZERTAC*

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin "Andiçmə: yeni Azərbaycanın prioritetləri" mövzusunda məqaləsi Azərbaycan Dövlət İnformasiya Agentliyi - *AZƏRTAC* saytında dərc edilib.

Dr. Orkhan Valiyev, head of Khazar University's Department of Political Sciences and Philosophy, authored an article titled "Inaugural Oath: New Priorities for Azerbaijan," which appeared on the Azerbaijan State Information Agency - *AZERTAC*'s website.

*https://azertag.az/xeber/prezident_ilham_eliyev_andichme_merasimindeki_nitqinde_yeni_azerbaycanin_prioritetlerini_beyan_etdi-2933757*





*Ceyhun Məmmədov*

## "UĞURLU İNSAN OLMAQ ÜÇÜN NƏ ETMƏLİ?" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "PATHWAYS TO SUCCESS: TIPS FOR ACHIEVING YOUR GOALS"

Fevralın 19-da Xəzər Universitetinin Mərmər salonunda universitet tələbələri üçün Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə "Uğurlu insan olmaq üçün nə etməli?" mövzusunda seminar keçirilib. Məruzəçi Milli Məclisin deputatı, Xəzər Universitetinin magistr məzunu, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov idi.

Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva tədbir iştirakçılarını salamlayaraq, mərkəzin fəaliyyəti haqqında qısa məlumat verib və məzunlarla universitet arasındakı əlaqələrin möhkəmləndirilməsinin vacibliyi barədə fikir və mülahizələrini ifadə edib.

Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova mərkəzin təşkilatçılığı ilə baş tutan bu kimi tədbirlərin önəmini və xüsusilə tələbələr üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Ceyhun Məmmədov öz məruzəsində tələbələrin gələcək şəxsi və iş həyatlarında uğur qazanmaları üçün nələrə diqqət yetirməli olduqları ilə bağlı tövsiyələr verərək, onlara vaxtın idarə olunması, mənəviyyat, əxlaq, dil bilikləri və s.-nin önəmindən danışıb. Qeyd edib ki, belə görüş və tədbirlərin Azərbaycan gənclərinin inkişafına, bilik və bacarıqlarının artırılmasına, intellektual səviyyələrinin və dünyagörüşlərinin zənginləşməsinə xidmət edir.

Tədbirdə Ceyhun Məmmədovun təşkilatçılığı ilə yaradılmış Dost Gəncləri İnkişaf Klubunun nüma-

On February 23, Mustafa Mohammad Ahmad Alalawneh, PhD student in 5310.01- "World Economy" of Khazar University, defended his thesis for the degree of Doctor of Philosophy on "Assessing the Impact of Foreign Direct Investment on Jordan's Economic Development " at the dissertation Council FD 1.11 at Azerbaijan State University of Economics granting degrees Doctor of Science and Doctor of Philosophy.

At the meeting chaired by the chairman of the dissertation council, Prof. Yadulla H.Hasanli, the questions of the board members were answered.

The Dissertation Council decided that the applicant can be granted Ph.D. degree taking into account the opinions of official opponents, individual scientists on the dissertation and its abstract, applicant's 6 articles and 5 conference materials published in local and foreign scientific journals, and that the dissertation's meeting the requirements of the High Attestation Commission under the President of the Republic of Azerbaijan.

## XARİCİ TƏLƏBƏ MÜBADİLƏ PROQRAMI İLƏ "XƏZƏR"DƏ
## AT "KHAZAR" UNDER FOREIGN STUDENT EXCHANGE PROGRAM

### ÇİNDƏN BAKIYA MÜBADİLƏ TƏCRÜBƏSİNƏ




Mən Pekin Universitetinin tələbəsiyəm, beş aylıq tədris kursu üçün Azərbaycanın Xəzər Universitetinə gəlmişəm. Tədqiqat sahəm beynəlxalq münasibətlər və diplomatiya, xüsusən də "Bir kəmər və yol" təşəbbüsü vasitəsilə Çin və Azərbaycan arasında inkişaf edən münasibətlərdir.

Mən, eyni zamanda, Azərbaycan dilini təkmilləşdirməyə də çalışıram. Azərbaycan dili mənim üçün xüsusilə əhəmiyyətlidir, çünki bu dili Çində bakalavr təhsili zamanı öyrənmişəm. Ümid edirəm ki, dil biliklərimlə buradakı tələbələrlə yaxşı dostluq münasibətləri qura biləcəyəm.

Mən Xəzər Universitetini beynəlxalq və multikultural mühitə, mükəmməl tədris resurslarına və mentorum Dr. Fərid Quliyevin rəhbərliyinə görə seçdim. İnanıram ki, burada keçirdiyim vaxt mənim üçün çox faydalı olacaq.

Təhsil ilə yanaşı, Azərbaycanın mədəni zənginliyini, tarixi əhəmiyyətini kəşf etmək və insanların isti münasibətini hiss etmək məni çox həyəcanlandırır.

Mənim tədqiqatım bugünkü qlobal dinamikada mühüm əhəmiyyət kəsb edən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna yönəldiləcək. Ümid edirəm ki, bu araşdırmam gələcək tədqiqatlar üçün faydalı olacaq.

Mən, həmçinin, təhsil səviyyəmi inkişaf etdirmək və Azərbaycan mədəniyyəti ilə yaxından tanış olmaq üçün müxtəlif universitet tədbirlərində iştirak etməyi səbrsizliklə gözləyirəm.

**Li Yushan**

### MY ACADEMIC EXCHANGE EXPERIENCE FROM CHINA TO BAKU

I am a student from Peking University heading to Khazar University in Azerbaijan for a five-month training course. My focus is on International Relations and Diplomacy, especially exploring the evolving relationship between China and Azerbaijan through the "Belt and Road" Initiative.

I am also diving into improving the Azerbaijani language. Azerbaijani holds a personal connection for me, as I studied it during my bachelor's in China. With language skills, I hope that with my language skills, I will be able to make good friendships with the students here.

I chose Khazar University for its international and multicultural environment, excellent teaching resources, and guidance from my mentor, Dr. Farid Guliyev. I believe my time here will be enriching.

Beyond academics, I am excited to explore Azerbaijan's cultural richness, historical significance, and experience the warmth of its people.

My research will focus on the Trans-Caspian International Transportation Route, crucial in today's global dynamics. I hope my insights will contribute to academic discussions.

I am also looking forward to participating in various university activities, fostering academic and cultural growth.

**Li Yushan**

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI TÜRKİYƏDƏ İŞGÜZAR SƏFƏRDƏ

# KHAZAR UNIVERSITY EMPLOYEE ON A BUSINESS TRIP IN TÜRKIYE

Fevralın 21-22-də Türkiyənin İstanbul şəhərində Marmara Qrupu Vəqfi 27-ci Avrasya İqtisadiyyat Zirvəsi keçirmişdir. Zirvə toplantısında dünyanın 40 ölkəsindən 2 dövlət başçısı, 18 sabiq president olmaqla 800-dən artıq nümayəndə iştirak edirdi. Zirvə toplantısına Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də dəvət olunmuşdu.



*Əlövsət Əmirbəyli, Şimali Kipr Türk Respublikasının prezidenti Ersin Tatar*

Toplantını giriş sözü ilə Marmara Qrupu Vəqfinin başqanı Akkan Suver açaraq, dövlət başçılarını və bütün qonaqları salamladı. İstanbul valisi Davut Gül Türkiyə Prezidenti Recep Tayyip Erdoğan`ın Zirvə toplantısının iştirakçılarına ünvanlanmış məktubunu oxudu.

Zirvə toplantısının 1-ci günü Özbəkistanın sabiq Xarici işlər naziri Vladimir Norov, İsveçrə Başqan yardımçısı David Chikvaidze, Türkiyə Akın Soft Yönətim İdarə Heyətinin Başqanı Özgür Akın və digərləri qısa nitq söylədilər.

Zirvə toplantısının 2-ci günü keçirilən ilk iclasında dünyanın 10 ölkəsindən 20-dən artıq dövlət, bələdiyyə və qeyri-hökümət təşkilatlarının nümayəndələri müxtəlif məruzələrlə çıxış etdilər. Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Ə. Əmirbəyli həmin iclasın katibliyinə seçilmişdi.

Zirvə toplantısının sonuncu günü sabiq prezidentlər Abdullah Gül (Türkiyə - video) ), Mladen İvaniç (Bosniya-Herseqovina), Emil Konstantinescu (Rumıniya) və digərləri çıxış edərək, son zamanlar dünyada yaranmış vəziyyətlə bağlı ölkələrinin mövqelərini bildirdilər.

Zirvə toplantısının sonunda xatirə şəkilləri çəkildi. Marmara Qrupu Vəqfi tərəfindən xarici ölkə rəhbərlərinin və qonaqların şərəfinə ziyafət verildi.

The 27th Eurasian Economic Summit was convened by the Marmara Group Foundation in Istanbul, Türkiye on February 21-22. Over 800 representatives, including two heads of state and 18 former presidents from 40 countries worldwide, participated in the summit. Alovsat Amirbeyli, the director of Public Relations and Media at Khazar University, was among the invitees.

Akkan Suver, the president of the Marmara Group Foundation, inaugurated the meeting with an opening speech, extending greetings to the heads of state and all attendees. Istanbul Governor Davut Gül presented a letter from Turkish President Recep Tayyip Erdoğan to the summit participants.

On the 1st day of the summit meeting, the former Foreign Minister of Uzbekistan Vladimir Norov, the Assistant President of Switzerland David Chikvaidze, the Chairman of the Board of Directors of Türkiye Akin Soft Özgür Akin, and others delivered short speeches.

At the first meeting held on the 2nd day of the summit, more than 20 representatives of state, municipal and non-governmental organizations from 10 countries of the world delivered various reports. Khazar University Public Relations and Media Director A. Amirbeyli was elected secretary of that meeting.

On the last day of the summit, former presidents Abdullah Gül (Türkiye - video), Mladen Ivanić (Bosnia-Herzegovina), Emil Konstantinescu (Romania), et c. delivered speeches and expressed the positions of their countries regarding the recent situation in the world.

At the end of the Summit, memory photos were taken. Marmara Group Foundation hosted a banquet in honor of foreign leaders and guests.

***



*Alptekin Yasım* *Əlövsət Əmirbəyli*

Fevralın 24-də Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli Kahramanmaraş Sütçü İmam Universitetində olub. Universitetin rektoru, Prof. Alptekin Yasım, prorektor Prof. İ.Ersin Akıncı, baş katib Ali Rza Bekler, Beynəlxalq ofisin müdiri Özlem Nalbantbaşı, Dos. Ömer Okan Fettahoğlu, Dos. Necmettin Gül, müəllimlər Burak Öztaş, Həmran Əmirli və digərləri tərəfindən "Xəzər"in nümayəndəsi səmimi qarşılanıb.

Ə. Əmirbəyli Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlının və rektor Doc. İradə Xəlilovanın salamlarını türkiyəli rektora çatdırıb.

Görüşdə üniversitetlər arasında qarşılıqlı işgüzar əlaqələrdən danışılıb. Xəzər Universitetinin rektoru tərəfindən imzalanmış əməkdaşlıq müqaviləsini Kahramanmaraş Sütçü İmam Universitetinin rektoru Prof. Alptekin Yasım imzalayıb və tərəflərə təqdim edilib. Hədiyyə mübadiləsi olub.

Kahramanmaraş Sütçü İmam Universitetinin rektoru yaxın zamanda Xəzər Universitetini ziyarət edəcəyini söyləyib.

On February 24, Alovsat Amirbeyli, the Director of Public Relations and Media at Khazar University, paid a visit to Kahramanmarash Sutcu Imam University. The representative from Khazar University received a warm welcome from the university's rector, Prof. Alptekin Yasım, vice-rector Prof. I. Ersin Akıncı, general secretary Ali Rza Bekler, head of the International Office Ozlem Nalbantbashi, as well as Assoc. Prof. Omer Okan Fettahoghlu, Assoc. Prof. Necmettin Gul, and faculty members Burak Oztash, Hamran Amirli, among others.

A.Amirbeyli conveyed the regards of Khazar University founder, Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli and Assoc. Prof. Rector Irada Khalilova to the Turkish rector.

Mutual business relations between universities were discussed at the meeting. The cooperation agreement signed by the rector of Khazar University was signed by Alptekin Yasim, rector of Kahramanmarash Sutcu Imam University and presented to the parties.

The rector of Kahramanmarash Sutcu Imam University expressed his intention to visit Khazar University soon.

***

Fevralın 24-də Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəylini Kahramanmaraş İstiklal Üniversitetində prorector Prof. Seçil Fettahoğlu, prorektor Prof. Burcu Erşahan, baş katib Cemil Toktay, rektorun müşaviri Mustafa Tuncer Okumuş, Beynəlxalq ofisin rəhbəri Emrah Peksoy, müəllim Həmran Əmirli və digər şəxslər qəbul ediblər.

Ə.Əmirbəyli Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad.Hamlet İsaxanlının və rektor Doc. İradə Xəlilovanın salamlarını çatdırıb. Görüşdə hər iki üniversitet arasında ikitərəfli əlaqələr müzakirə olunub. Xəzər Universitetinin rektoru tərəfindən imzalanmış müqavilə Kahramanmaraş İstiklal Üniversitetinin prorektoru, Prof. Seçil Fettahoğlu tərəfindən imzalanıb və tərəflərə təqdim edilib.

In February 24, Alovsat Amirbeyli, Director of Public Relations and Media at Khazar University, was at Kahramanmarash Istiklal University and welcomed by Vice-Rector Prof. Sechil Fettahoğlu, Vice-Rector Prof Burcu Ershahan, Secretary General Cemil Toktay, Advisor to the Rector Mustafa Tuncer Okumush, Head of the International Office Emrah Peksoy, Lecturer Hamran Amirli et c.

A.Amirbeyli conveyed the regards of Khazar University founder, Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli and Assoc. Prof. Rector Irada Khalilova to the Turkish rector. Mutual business relations between universities were discussed at the meeting. The cooperation agreement signed by the rector of Khazar University was signed by Prof. Sechil Fettahoğlu, vice- rector of Kahramanmarash Istiklal University and presented to the parties



*Seçil Fettahoğlu* *Əlövsət Əmirbəyli*

***

Fevralın 26-da Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli Mərkəzi ofisi İstanbulda yerləşən TESAM-ı (Türkiye Ekonomik, Siyasal, Strateji Araştırmalar Merkezi) ziyarət edib. Mərkəzin baş müdiri Dr.İlyas Bozkurt Əlövsət Əmirbəyli ilə görüş zamanı gələcəkdə Xəzər Universiteti ilə əlaqələrin yaradılmasına böyük maraq göstərdiklərini söyləyib. Deyib ki, artıq dünyanın 4 ölkəsində mərkəzi ofisləri fəaliyyət göstərir.

Görüşdə TESAM Xarici əlaqələr şöbəsinin nümayəndəsi, baş müdir yardımçısı M.Talha Zeytinci, TESAM baş müdir yardımçısı Yıldırım Deniz, TESAM Türk Dünyası Koordinatoru Muhammet Kildize və digər şəxslər iştirak ediblər.

Əlövsət Əmirbəyli səmimi görüşə görə TESAM baş müdirinə və onun rəhbərlik etdiyi kollektivə dərin təşəkkürünü bildirib.

On February 26, Alovsat Amirbeyli, Khazar University's Director of Public Relations and Media, paid a visit to TESAM (Türkiye Economic, Political, Strategic Research Center) in Istanbul. Dr. Ilyas Bozkurt, the center's General Director, expressed keen interest in fostering future relations with Khazar University during the meeting with Amirbeyli. Bozkurt mentioned the existence of central offices in four countries worldwide.

Present at the meeting were M. Talha Zeytinci from TESAM's Foreign Relations Department, Yıldırım Deniz and Muhammet Kildize, both assistants to the General Manager, as well as the TESAM Turkish World Coordinator and others.

A. Amirbeyli extended sincere gratitude to the General Director of TESAM and his team for the fruitful meeting.



*Yıldırım Deniz, Abdullah Çalışır, Əlövsət Əmirbəyli, İlyas Bozkurt, Muhammed Akberov, M.Talha Zeytinci, Muhammet Kıldize*

***



*Mustafa Aydın* *Əlövsət Əmirbəyli*

26 fevral - 1 mart tarixlərində İstanbul şəhərində yerləşən Lütfi Kırdar Beynəlxalq Konqres Mərkəzində (ICEC) EURIE-2024 Təhsil Sammitinin rəsmi açılışı olub. Sammiti giriş sözü ilə Avrasiya Universitetlər Birliyinin (EURAS) prezidenti Dr. Mustafa Aydın açıb.

Sammitdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

Tədbir çərçivəsində Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva universitetin fəaliyyət istiqamətləri haqda ümumi məlumat verib.

Sərgidə isə Xəzər Universitetinin nümayəndələri universitetin stendində universitetin fəaliyyəti və əcnəbi tələbələrin qəbul prosesi, təqaüd imkanları haqqında iştirakçıları məlumatlandırıblar. Bununla yanaşı, nümayəndələr universitetin tərəfdaşlarının stendlərinə baxıblar və yeni əməkdaşlıqlar üçün digər universitetlərlə də danışıqlar aparılıb.

Tədbirdə iştirak edən rəsmi qonaqlar, YÖK başqanı, millət vəkilləri, bir sıra ölkələrin təhsil nazirləri Xəzər Universitetinin pavilyonu ilə yaxından tanış olublar.

From February 26 to March 1, the EURIE-2024 Education Summit was officially opened at the Lütfi Kırdar International Congress Center (ICEC) in Istanbul. Dr. Mustafa Aydin, president of the Eurasian University Union (EURAS), opened the summit with his opening adress.

Alovsat Amirbeyli, the director of Public Relations and Media of Khazar University, and Fatima Valiyeva, the head of International Relations Department, participated in the summit.

In the Lounge Showcase organized as part of the event, Fatima Valiyeva, head of the International Relations Department of Khazar University, provided an overview of the university's activities.



*Fatimə Vəliyeva*

At the exhibition, representatives of Khazar University gave information about the activities of the university, the admission process of foreign students, and scholarship opportunities at the university's stand. In addition, the representatives viewed the stands of the university's partners, and negotiations were held with other universities for new collaborations.

The event was attended by official guests, the president of Council of Higher Education , ministers, MPs, education ministers of a number of countries. They got to know the pavilion of Khazar University.

# “XƏZƏR”Ə TƏŞƏKKÜR MƏKTUBU

# MARMARA GRUBU VAKFI

İstanbul

MARMARA GRUBU STRATEJİK VE SOSYAL ARAŞTIRMALAR VAKFI

**Sayın Alovsat Amirbeyli, Hazar Üniversitesi Genel Sekreteri**
**Bakü – Azerbaycan**

***Saygıdeğer Amirbeyli,***

27. Avrasya Ekonomi Zirvesi'ni tamamlamanın mutluluğunu yaşıyoruz.

Zirvemizi yüksek varlığınızla şereflendirdiniz. Minnettarız. Katılımınızdan dolayı teşekktirlerimizi sunuyoruz. 27. Avrasya Ekonomi Zirvesi'nde 44 ülke, Cumhurbaşkanı, Meclis Başkanı, Bakan, Milletvekili, İnanç Önderi, Akademisyeni ve İş insanlarıyla yer aldı. 27. Avrasya Ekonomi Zirvesi'ne Türkiye Cumhurbaşkanı Recep Tayyip Erdoğan ve Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in mesajlarıyla başladık. 27. Avrasya Ekonomi Zirvesi'nde Avrasya Ekonomi Zirvelerinin oluşumunda emeği geçen 9. Cumhurbaşkanı Süleyman Demirel'i de 100. doğum yılı münasebetiyle andık. Gene Zirvemizde krizlerden istikrara kapsayıcı bir dünya kurmanın felsefesini tartıştık. 27. Avrasya Ekonomi Zirvesi'nde yapılan konuşmaların yer alacağı kitabımızı en kısa zamanda hazırlayarak bilginize sunacağız.

Gelecek yıl 28. Avrasya Ekonomi Zirvesi'nde bir arada olmak ümidiyle en içten teşekkürlerimizi ve saygılarımızı sunarız.

*En içten saygılarımızla,*
**Dr.Akkan Suver**
**Genel Başkan**
*29.02.2024*

# LETTER OF THANKS TO KHAZAR UNIVERSITY

MARMARA GROUP STRATEGIC AND SOCIAL RESEARCH FOUNDATION

**Dear Alovsat Amirbeyli, Secretary-General of Khazar University**
**Baku – Azerbaijan**

***Respected Amirbeyli,***

We are delighted to have successfully concluded the 27th Eurasian Economic Summit.

Your esteemed presence graced our summit, and for that, we are grateful. We extend our thanks for your participation. At the 27th Eurasian Economic Summit, we were joined by representatives from 44 countries, including Presidents, Speakers of Parliament, Ministers, Members of Parliament, Religious Leaders, Academics, and Business Leaders. The summit commenced with messages from President Recep Tayyip Erdoğan of Türkiye and President Ilham Aliyev of Azerbaijan. During the summit, we also commemorated the 100th birth anniversary of the late 9th President of Türkiye, Suleyman Demirel, who played a significant role in the formation of Eurasian Economic Summits. Discussions at the summit focused on the philosophy of transitioning from crises to stability to create a more inclusive world. We will prepare and share a book containing the speeches delivered at the 27th Eurasian Economic Summit with you as soon as possible.

We extend our heartfelt thanks and regards, hoping to come together again next year at the 28th Eurasian Economic Summit.

*Sincerely,*
**Dr.Akkan Suver**
**General Director**
*29.02.2024*



Təhsil departamentinin müdiri Leyla Əliyeva, Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva

# "MÜƏLLİMLİYƏ GEDƏN YOL" MÖVZUSUNDA DƏYİRMİ MASA

# ROUND TABLE DISCUSSION: EXPLORING THE PATH TO TEACHING

Fevralın 24-də Karyera və Məzunlar Mərkəzinin və Təhsil departamentinin birgə təşkilatçılığı ilə Xəzər Universitetinin "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil alan sonuncu kurs tələbələri üçün "Müəllimliyə gedən yol" mövzusunda dəyirmi masa təşkil edilib.

Məruzəçilər hazırda ölkədə fəaliyyət göstərən dövlət və özəl orta ixtisas təhsili müəssisələrində ibtidai sinif müəllimləri olaraq işləyən Xəzər Universitetinin müxtəlif illər üzrə məzunları olub. Belə ki, tədbirdə 275 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Səbinə Məmmədbəyova, Landau məktəbinin ibtidai sinif müəllimi Fidan Seyidzadə, Kaspi KIDS-in

On February 24, a round table on the topic "Exploring the Path to Teaching" was organized for the final year students of Khazar University majoring in "Primary class teaching" with the joint organization of the Career and Alumni Center and the Department of Education. The speakers were graduates of Khazar University for various years, who are currently employed as primary school teachers in both public and private secondary special education institutions across the country. Sabina Mammadbayova, primary school teacher at secondary school No. 275, Fidan Seyidzade, Primary School teacher at Landau school, Gulara Atayeva, pre-



Fatimə Bədirova, Alsu Vəlizadə, Səbinə Məmmədbəyova

məktəbəqədər müəllimi Gülarə Atayeva, Bakı Modern Təhsil Kompleksinin ibtidai sinif müəllimi Ülviyyə Fətiyeva, XXI əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzinin ibtidai sinif müəllimi Alsu Vəlizadə və Evrika liseyində ibtidai sinif və STEAM müəllimi olaraq fəaliyət göstərən Fatimə Bədirova çıxış edərək, Xəzər Universitetində əldə etdikləri bilik və bacarıqlardan, pedaqoji fəaliyyətlərindəki təcrübələrini paylaşıblar. Onlar çıxışlarında müəllim-şagird-valideyn münasibətlərinin önəmindən, inklüziv təhsilin səmərəli tətbiqindən, təlim-tərbiyə prosesində pedaqoji ünsiyyətin əhəmiyyətindən və digər məsələrdən bəhs ediblər.



*Ülviyyə Fətiyeva, Fidan Seyidzadə*

Tədbir sual-cavab sessiyası ilə yekunlaşıb.



school teacher at Kaspi Kids, Ulviyya Fatiyeva, primary school teacher at Baku Modern Education Complex, Alsu Velizadeh, a primary school teacher at the XXI Century International Education and Innovation Center, and Fatima Bedirova, who works as a primary and STEAM teacher at the Evrika Lyceum, spoke and shared the knowledge and skills she acquired at Khazar University, as well as her experience in pedagogical activities. Their presentations covered topics such as the significance of teacher-student-parent relationships, effective implementation of inclusive education, the importance of pedagogical communication, and other pertinent issues.

The event concluded with a question-and-answer session with the participating students.



*Valentina Erastova, Fəxrəndə Əfəndiyeva*

# EDİNBURQ UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

# EXPANSION OF COLLABORATION WITH UNIVERSITY OF EDINBURGH

Oktyabr ayından Xəzər Universitetinin Neft mühəndisliyi departamentinin müdiri Dr.Elşən Abdullayev ilə Edinburq Universitetinin (Böyük Britaniya) Kimya departamentinin əməkdaşı Dr. Valentina Erastova gil minerallarını və üzvi maddələrin təmasını tədqiq edirlər.

Xəzər Universitetinin Edinburq Universiteti ilə elmi əməkdaşlığını genişləndirmək məqsədilə Dr.Valentina Erastova fevral ayında Xəzər Universitetinə dəvət olunub. Bu əməkdaşlıq çərçivəsində alimin "Gəlin çirklənmədən danışaq: yerin ekoloji sportiv materiallarından kosmosun biogöstəricilərinə kimi" (Let's talk about dirt: from environmental sportive materials of Earth to biosignatures in Space) və "Həyatın mənşəyini araşdırmaq: mənim zamanımın və Kosmosda səyahət vasitəsininin hesablanma kimyası" (Searching for the origin of life: Computational Chemistry My Time And Space Traveling Tool) mövzularında seminarları keçirilib.

Seminarlarda Neft mühəndisliyi departamentinin və Kimya və kimya mühəndisliyi departamentinin tələbələri iştirak ediblər.

Since October Dr. Elshan Abdullayev, who leads Khazar University's Petroleum Engineering Department, and Dr. Valentina Erastova, a staff member at the Chemistry Department of the University of Edinburgh (UK), have been investigating the interaction between clay minerals and organic substances.

With the aim of enhancing scientific collaboration between Khazar University and the University of Edinburgh, Dr. Valentina Erastova was invited to Khazar University from February. During this collaboration, seminars were conducted by the scientist on the topics of " Let's talk about dirt: from environmental sportive materials of Earth to biosignatures in Space " and " Searching for the origin of life: Computational Chemistry My Time And Space Traveling Tool ."

Students from the Petroleum Engineering and Chemistry and Chemical Engineering Departments participated in these seminars.



# İLK DƏRS XOCALI SOYQIRIMININ 32 - Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNUB



*Kəmalə Mustafayeva*

# FIRST CLASS COMMEMORATES THE 32ND ANNIVERSARY OF KHOJALY GENOCIDE

Fevralın 24-də Xəzər Universitetində bütün ixtisaslarda tədris olunan Azərbaycan tarixi fənninin ilk saatı Xocalı soyqırımının 32 - ci ildönümünə həsr olunub. Universitetin Tarix və arxeologiya departamentinin müəllimləri, tarix elmləri doktoru, Prof. Habil Məmmədov, tarix üzrə fəlsəfə doktorları Yaqub Məmmədov, Ramin Fətullayev, Ülviyyə Səfərova və doktorant Kəmalə Mustafayeva tələbələrə Xocalı soyqırımı və onun dünya ölkələri tərəfindən tanınması istiqamətində aparılan məqsədyönlü işlər haqqında geniş məlumat veriblər.

Qeyd etmək lazımdır ki, 1992-ci il fevralın 26-da erməni hərbi birləşmələri tərəfindən törədilən bu faciə zamanı 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, 1275 nəfər isə əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Azərbaycan xalqı günahsız qurbanları heç zaman unutmayacaq və haqq -ədalət uğrunda mübarizə aparacaq. Bu gün artıq Azərbaycan bayrağı Xocalıda dalğalanır və ən qısa zamanda o torpağın sahibləri öz dədə - baba yurdlarına qayıdacaqlar.

On February 24, the first hour of Azerbaijan history class across all disciplines at Khazar University is dedicated to commemorating the 32nd anniversary of the Khojaly genocide. The faculty members from the Department of History and Archeology of the University, Doctor of History Prof. Habil Mammadov, Doctor of Philosophy in History Yagub Mammadov, Ramin Fatullayev, Ulviyya Safarova and PhD student Kamala Mustafayeva provided comprehensive insights to students regarding the Khojaly Genocide and ongoing efforts for its global recognition.

It's worth mentioning that during the tragic events perpetrated by Armenian military units on February 26, 1992, 613 individuals from Khojaly lost their lives, among them 63 children, 106 women, and 70 elderly individuals. Additionally, 8 families were entirely wiped out, 25 children lost both parents, 130 children lost one parent, and 1275 people were taken captive. The fate of 150 of these captives, including 68 women and 26 children, remains unknown.

The Azerbaijani people will forever remember the innocent victims and continue to advocate for justice. Presently, the Azerbaijani flag proudly waves in Khojaly, and the rightful inhabitants of the land will return to their ancestral homes at the earliest opportunity.



Telman Nüsrətoğlu



# XOCALI SOYQIRIMI İLƏ BAĞLI ANIM GÜNÜ
# KHOJALY GENOCIDE REMEMBRANCE DAY

Fevralın 26-da Xəzər Universitetinin Mərkəz kampusunda Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunan anım günü keçirilib. Tarix və arxeologiya departamentinin təşkilatçılığı sayəsində reallaşan tədbirə qatılan müəllimlər, qazilər və tələbələr Xocalı şəhidlərinin əziz xatirəsini yad ediblər. Departamentin müdiri Dos. Telman Nüsrətoğlunun və qazilərin çıxış etdikləri mərasimdə anım gününün mahiyyətinə uyğun mahnılar, şeirlər səsləndirilib və səhnələr nümayiş etdirilib.

On February 26, a memorial event commemorating the 32nd anniversary of the Khojaly genocide took place at Khazar University's Downtown campus. Organized by the History and Archeology Department, faculty members, veterans, and students gathered to commemorate the memory of the Khojaly martyrs. The head of the department, Assoc. Prof. Telman Nusratoghlu, and the veterans spoke at the ceremony, songs and poems reflecting the solemnity of the memorial day were played and scenes were displayed.








TƏŞƏKKÜRNAMƏ







# YAŞIL HƏMRƏYLİK NAMİNƏ SÜNİ İNTELLEKT LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İNFOSESSİYA

# AI FOR GREEN SOLIDARITY PROJECT INFORMATION SESSION

Fevralın 27-də İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə "Enterprise Azerbaijan" portalı Almaniyanın Süni İntellekt Araşdırma Mərkəzi və ABŞ-ın Nevada Universiteti ilə birgə növbəti "Startup School" layihəsi çərçivəsində infosessiya baş tutmuşdur. Tədbirdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu Enterprise Azerbaijan portalının rəhbəri Mətanət Musayeva İqtisadiyyat və menecment fakültəsinin tələbələrinə "StartUp School" layihəsini təqdim edib. Bundan əlavə, layihə meneceri Nəzrin Əkbərova "StartUp School" haqqında tələbələrə geniş informasiya çatdırıb.

Qeyd edək ki, "AI for Green Solidarity" (Yaşıl həmrəylik naminə süni intellekt) devizi altında keçirilən budəfəki müsabiqə də startapçılara geniş imkanlar təqdim edir:

- ABŞ, Almaniya, İngiltərə, Türkiyə, Rusiya, Polşa, CAR və Azərbaycandan olan mentorlar tərəfindən təlim;
- Kursu bitirən bütün startapçılara beynəlxaq səviyyəli sertifikat;
- I yerin qalibinə ABŞ-da I2B treninqdə iştirak imkanı;
- I, II və III yerlərin qaliblərinə Dövlət Məşğulluq Agentliyi tərəfindən dəstək;
- 5 layihəyə Türkiyədə OSTİM Texnologiya Mərkəzində praktiki təlimlərdə iştirak etmək imkanı;
- 5 layihəyə Qarabağda keçiriləcək "AI for Karabakh" hakatonunda yarışmaq imkanı;
- 10 layihəyə SABAH.HUB-ın inkubasiya proqramında iştirak imkanı;
- 10 layihənin "Startap şəhadətnaməsi" üçün müraciətinə KOBİA tərəfindən sürətləndirilmiş dəstəyin göstərilməsi.

Layihəyə hər hansı ali təhsil müəssisəsinin süni intellekt ilə bağlı layihəsi və ya ideyası olan hər kəs (fərdi və ya 3-5 nəfərlik komanda şəklində) müraciət edə bilərlər.

On February 27, the School of Economics and Management, in collaboration with the "Enterprise Azerbaijan" portal, the Artificial Intelligence Research Center of Germany, and the University of Nevada, USA, organized an information session for the upcoming "Startup School" project. Matanat Musayeva, head of the Enterprise Azerbaijan portal operated by the Center for Analysis and Communication of Economic Reforms, introduced the "Startup School" project to students of the School of Economics and Management. Additionally, project manager Nazrin Akbarova provided detailed information to students about the "Startup School" initiative.

It is worth noting that this year's competition, themed "AI for Green Solidarity," offers startupers a wide range of opportunities. Individuals or teams of 3-5 people from any higher education institution who have a project or idea related to artificial intelligence can apply to participate in the project until March 17, 2024.

- Mentorship from experts in the USA, Germany, England, Türkiye, Russia, Poland, Central African Republic, and Azerbaijan.
- International-level certificate awarded to all startupers upon completion of the course.
- First place winner eligible to attend I2B training in the USA.
- Support from the State Employment Agency for first, second, and third place winners.
- Opportunity for 5 projects to undergo practical training at OSTIM Technology Center in Türkiye
- 5 projects granted entry to "AI for Karabakh" hackathon in Karabakh.
- 10 projects invited to participate in the incubation program at SABAH.HUB.
- Accelerated support provided by KOBIA for applications to obtain "Startup Certificate" for 10 projects.

Individuals or teams of 3-5 people from any higher education institution who have a project or idea related to artificial intelligence are eligible to apply to the project.

# "QANUN" NƏŞRİYYATI ƏMƏKDAŞININ TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ



*Aygün Əziz*

Fevralın 29-da Xəzər Universitetində bədii tərcüməçi, "Qanun" nəşriyyatının əməkdaşı Aygün Əzizin bakalavr pilləsində təhsil alan tələbələrlə görüşü olub. Görüş universitetdə fəaliyyət göstərən "Tərcümə Mərkəzi"nin koordinatoru Elvin Abbasbəylinin təşəbbüsü, həmçinin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasovanın dəstəyi ilə baş tutub. Giriş sözü ilə tədbiri açan Milana Abbasova iştirakçılara qonaq haqqında qısa məlumat verib.

Sonra çıxış edən Elvin Abbasbəyli tələbələr tərəfindən ingilis dilinə tərcümə olunan bir kitabın "Qanun" nəşriyyatında çap edilməsi ilə bağlı müqavilə imzalandığını söyləyib və mart ayında Aygün Əzizin departamentin "Bədii tərcümə" dərsində tələbələrlə ustad dərsi keçəcəyini söyləyib. Aygün Əziz tələbələrə bədii tərcümə peşəsindən, bu tərcümə növünün texnikalarından, eləcə də tərcümə sahəsində qazandığı təcrübələrindən bəhs edib. Sonra nəşriyyat nümayəndəsi tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# QANUN PUBLISHING HOUSE TRANSLATOR AYGUN AZIZ'S MEETING WITH STUDENTS



On February 29, Aygun Aziz, a literary translator and employee of the "Qanun" publishing house, met with undergraduate students at Khazar University. The meeting was organized at the initiative of Elvin Abbasbeyli, coordinator of the Center of Translation and Interpretation at the university, and with the support of Milana Abbasova, head of the English Language and Literature Department. Milana Abbasova commenced the event with an introduction and provided participants with a brief overview of the guest. Elvin Abbasbeyli later announced that a contract had been signed with "Qanun" publishing house to publish a book translated into English by the students. Additionally, Aygun Aziz will conduct a master class with students in the department's "Literary Translation" course in March. Aygun Aziz shared insights into the literary translation profession, techniques used in this type of translation, and her experiences in the field. Following this, the publishing house representative addressed numerous questions from the students.



# DÜNYANIN ƏN UCUZ 11 ŞƏHƏRİ

Böyük Britaniyada yerləşən *Economist Intelligence Unit* tərəfindən təhlil edilən 173 şəhər arasında Suriyanın Dəməşq şəhəri ən ucuz şəhər olub.

*Valyuta.az* bu barədə xarici mediayaya istinadən xəbər verir ki, dünyada yaşayış xərcləri ilə bağlı aparılan sorğunun nəticələrinə dair son hesabatda dünyanın ən ucuz şəhərlərinin istehlak malları baxımından da olduqca ucuz olduğu məlum olub.

"*Business Insider*"-ə açıqlama verən *EIU* bildirib ki, dünya miqyasında yaşayış dəyəri indeksi bu ilki araşdırmada 173 şəhəri qiymətləndirir. Siyahıda şəhərin böyüklüyü və əhalisi, iqtisadi və ictimai əhəmiyyəti kimi müxtəlif faktorlar rol oynayır. *EIU*-nun tədqiqat direktoru Barsali Bhattacharyya reytinqlərimizdə şəhərləri tez-tez aşağı salan başqa bir amil yerli valyutaların ABŞ dollarına nisbətdə gücü olduğunu qeyd edib

173 şəhər əsasında hazırlanan hesabatda Sinqapur və Sürix ən bahalı şəhərlər olaraq qiymətləndirilib. Suriyanın paytaxtı Dəməşqin indeks dəyəri yalnız 13 olaraq hesablanıb.

Dünyanın ən ucuz 11 şəhəri aşağıdakılardır:

1. Buenos Ayres, Argentina - indeks dəyəri 37
2. Chennai, Hindistan - indeks dəyəri 37
3. Laqos, Nigeriya – indeks dəyəri 35
4. Əhmədabad, Hindistan - indeks dəyəri 34
5. Lusaka, Zambiya - indeks dəyəri 33
6. Tunis, Tunis - indeks dəyəri 32
7. Daşkənd, Özbəkistan - indeks dəyəri 31
8. Kəraçi, Pakistan - indeks dəyəri 28
9. Tripoli, Liviya - indeks dəyəri 23
10. Tehran, İran - indeks dəyəri 20
11. Dəməşq, Suriya - indeks dəyəri 13

03.03.2024

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu
Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.
Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.
İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.
Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).
Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.
Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

**Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?**

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi